27 iyul 2022 №55 (1928)

www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

Qəzet 1991-ci ilin yanvarından çıxır

## Prezident dövlət məmurlarına bir daha xəbərdarlıq etdi

Siz daim insanlarla təmasda olmalısınız. Bütün kəndlərdə olmalısınız, kənd camaatının qayğıları ilə yaşamalısınız, onları narahat edən problemləri onların dilindən eşitməlisiniz və imkan daxilində bu problemləri həll etməlisiniz. Nəyə gücünüz çatırsa, rayon daxilində həll etməlisiniz. Elə məsələlər var ki, onlar dövlət orqanları tərəfindən həll olunmalıdır. Bu barədə də aidiyyəti dövlət orqanlarına müraciət etməlisiniz ki, mövcud problemlər öz həllini tapsın. Əgər hər bir kəndin problemi həll olunarsa, deməli ki, ölkədə insanları narahat edən ciddi problem qalmayacaq.

Prezident İlham Əliyev bu sözləri iyulun 25-də Araz Əhmədovu Masallı rayonunun, Əkbər Abbasovu Lerik rayonunun və Elvin Paşayevi Göygöl rayonunun icra başçısı vəzifələrinə təyin olunmaları ilə əlaqədar qəbul edərkən deyib.

davamı səh. 2-də

## Medianın qlobal trendləri Şuşada müzakirə olunub

Xəbər verdiyimiz kimi, Medianın İnkişafı Agentliyinin təşkilatçılığı ilə iyulun 22-də Şuşada Milli Mətbuat Günü münasibətilə "Mediada qlobal trendlər, yeni çağırışlar" mövzusunda Beynəlxalq Media Forumu keçirilib.

Forumda Azərbaycanın media nümayəndələri, ekspertlər və rəsmi şəxslərlə yanaşı, 20-dək ölkədən media təmsilçiləri iştirak ediblər.

Forumda Prezidentin köməkçisi – Prezident Administrasiyası Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev dövlət başçısı İlham Əliyevin 22 iyul – Milli Mətbuat Günü münasibətilə ölkəmizin media nümayəndələrinə müraciətini oxuyub.

Müraciətdə vurğulanır ki, Milli Mətbuat Günü ilə bağlı Şuşada keçirilən ilk tədbir zəngin ənənələrə malik Azərbaycan mediasının tarixində əlamətdar hadisə olacaq. Diqqətə çatdırılır ki, kommunikasiya vasitələrinin transformasiya mərhələsini yaşadığı, rəqəmsal platformaların və sosial media alətlərinin öz əhatə dairəsini genişləndirdiyi hazırkı dövrdə milli informasiya resurslarımızın potensialının və qlobal informasiya şəbəkəsində mövqelərinin gücləndirilməsi başlıca vəzifələrdən biridir.

Qeyd olunur ki, Vətən müharibəsi zamanı Azərbaycan mediası informasiya cəbhəsində mübarizə apararaq, kütləvi dezinformasiya hücumlarının qarşısının alınmasında, cəmiyyətimizin operativ və düzgün məlumatlandırılmasında böyük rol oynayıb. Media resurslarımız Azərbaycan həqiqətlərini, o cümlədən işğal dövründə ermənilərin tarixi torpaqlarımızda törətdikləri misli görünməmiş vəhşilikləri və vandallığı beynəlxalq ictimaiyyətə çatdırmaq üçün fəaliyyətlərini yorulmadan davam etdirirlər.

davamı səh. 4-də

## Yerlərdə mədəni fəaliyyət dövrün tələblərinə cavab verirmi?

Mədəniyyət naziri Anar Kərimov Qəbələ rayonuna səfəri zamanı şəhər Uşaq incəsənət məktəbi, rayon Heydər Əliyev Mərkəzi, Tarix-Diyarşünaslıq Muzeyi, qədim Qəbələ şəhərinin qalıqları üzərində yaradılan Qəbələ Dövlət Tarix-Bədii Qoruğu, Qəbələ Arxeoloji Mərkəzi və digər mədəniyyət müəssisələrinin fəaliyyəti ilə tanış olub, tarixi məkanlara baş çəkib.

səh. 3

## Tbilisidə Qarabağın tarixi irsi haqqında nəşrin təqdimatı




Tbilisidə Gürcüstan Təsviri İncəsənət Muzeyində "Qarabağ xanlığı. Tarixi və mədəni kimlik" kitabının təqdimat mərasimi keçirilib.

Azərbaycan, rus, ingilis, fransız və ərəb dillərində nəşr olunan kitabda XIX əsrdə çar Rusiyasının Qarabağda həyata keçirdiyi hərbi və elmi ekspedisiyalar zamanı toplanan və hazırda Gürcüstan Milli Muzeyinin fondlarında saxlanılan Qarabağ xanlığına aid olan 300-dən çox artefaktın fotoları, onlar haqqında məlumatlar yer alıb.

səh. 8

# "Qarabağdan doğan Günəş və Ay"

### TÜRKSOY-da Xurşidbanu Natəvan və Fatma xanım Kəminə haqqında kitab təqdim edildi

İyulun 26-da Ankarada, Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı – TÜRKSOY-un qərargahında Azərbaycan Milli Məclisinin Mədəniyyət komitəsi, Azərbaycanın Türkiyədəki Səfirliyi və Türk Ədəbiyyatı Fondunun birgə əməkdaşlığı ilə "Qarabağdan doğan Günəş və Ay. Xurşidbanu Natəvan. Fatma xanım Kəminə" kitabının təqdimat mərasimi keçirildi.



Təqdimatda TÜRKSOY-un Baş katibi Sultan Raev, Milli Məclisin Mədəniyyət komitəsinin sədri Qənirə Paşayeva, Azərbaycanın Türkiyədəki səfiri Rəşad Məmmədov, Türkiyə-Azərbaycan Dostluq, Əməkdaşlıq və Həmrəylik Fondunun (TADƏHF) rəhbəri Aygün Attar, Ankara Keçiören Bələdiyyəsinin başqanı Turqut Altınok, digər qonaqlar iştirak edirdi.

Tədbiri giriş sözü ilə açan Sultan Raev qonaqları salamladı və sonra Azərbaycanla TÜRKSOY arasında işbirliyindən bəhs etdi. Bildirdi ki, TÜRKSOY qurulduğu gündən qardaş xalqlarımızın tanınmış şəxsiyyətlərinin irsinə xüsusi diqqət ayırır: "Azərbaycan söz və sənət adamlarının zəngin yaradıcılıq irsinin Türk dünyasında tanıdılması böyük əhəmiyyət kəsb edir. Belə tədbirlər Azərbaycanın Türk dünyası üçün necə böyük, dahi şəxsiyyətlər yetişdirdiyini göstərir. Bu gün isə Azərbaycanın iki görkəmli xanım şairi haqqında kitabın təqdimatını keçiririk. Nəşrin müəllifləri Qənirə Paşayeva və dəyərli alim Faiq Ələkbərliyə təşəkkür edir, türk mədəni irsini zənginləşdirən Xurşidbanu Natəvanı və Fatma xanım Kəminəni də hörmətlə anırıq...".

Səfir Rəşad Məmmədov çıxışında öncə TÜRKSOY-un fəaliyyətinə toxundu və bildirdi ki, qurum Türk dünyasının ortaq mədəni dəyərlərinin tanıdılması və təbliğində önəmli işlər görür: "Belə deyim var, türklər tarix yaradır, amma yazmır. Düşünürəm ki, gec də olsa, tariximizi yazırıq. Bu kitab da bizim ortaq tariximizin, Şuşamız haqqında yazılan tarixin bir hissəsidir".

Səfir Qarabağ xanının qızı Natəvanın ədəbi, eləcə də ictimai fəaliyyətindən söz açaraq bildirdi ki, onun yazdığı əsərlər ortaq dəyərimizə çevrilib. Natəvanın yaradıcılığı ilə biz həm də Şuşanın tarixini öyrənirik...

Təqdimatda çıxış edən Qənirə Paşayeva iki xanımın xatirəsinə həsr edilən tədbirin əhəmiyyətini vurğuladı. Bildirdi ki, dünyada qadınlara heç bir seçim hüququ verilmədiyi bir dönəmdə Xurşidbanu Natəvan Qarabağda ədəbiyyatı təbliğ etmək üçün "Məclisi-üns" qurur. Şuşa, Qarabağ Türk dünyasının bir mədəniyyət mərkəzinə çevrilir.

davamı səh. 2-də

## Ölkənin gələcəyi üçün mədəni və yaradıcı cəmiyyətin inkişafı xüsusi önəm daşıyır

Beş fundamental nəticə – qalib dövlət, beynəlxalq nüfuz, təhsilli cəmiyyət, böyük iqtisadi potensial və yüksələn rifah ölkənin 10 illik sosial-iqtisadi inkişaf nailiyyətlərini xarakterizə edir. Bu nailiyyətlər uzunmüddətli dövrdə ölkə iqtisadiyyatı üçün keyfiyyətcə yeni sosial-iqtisadi inkişaf simasının formalaşmasına böyük töhfə verəcək. Əldə olunmuş nailiyyətlər son 10 ildə həyata keçirilən genişmiqyaslı hədəflərə hesablanmış islahatların nəticəsidir.

Bu tezislər "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda əksini tapıb. Strategiya iyulun 22-də Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamı ilə təsdiq olunub.

Sənəddə vurğulanır ki, ölkənin tarixi ərazi bütövlüyünün bərpası iqtisadiyyatın perspektiv inkişafı ideyalarının reallaşmasına zəmin yaratmışdır. Rəşadətli Azərbaycan Ordusu tərəfindən torpaqlarımızın işğaldan azad edilməsi və ölkənin ərazi bütövlüyünün bərpası xalqımızın çoxəsrlik tarixində misilsiz nailiyyətdir.

"2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası" ölkə başçısının 2021-ci il 2 fevral tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan – 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" əsasında hazırlanıb. "Qüdrətli dövlət və yüksək rifah cəmiyyəti" devizi ilə təqdim olunan sənəd ölkəmizin beş il ərzində nəzərdə tutulan inkişaf strategiyasının əsas istiqamət və hədəflərini müəyyən edir. Strategiya həmçinin müvafiq istiqamət və sahələr üzrə Tədbirlər planı da əksini tapıb.

davamı səh. 2-də

## Mədəniyyət Nazirliyinin dəstəyi ilə Milli Yaylaq Festivalı keçiriləcək

Xəbər verdiyimiz kimi, 29-31 iyul tarixində Azərbaycanın milli-mənəvi dəyərlərinin təbliği, yaylaq və elat mədəniyyətinin yaşadılması və beynəlxalq miqyasda tanıdılması məqsədilə II Milli Yaylaq Festivalı keçiriləcək. İlk dəfə 2019-cu ildə Gədəbəy rayonunda Düzyurd-Miskinli yaylağında təşkil olunan festival üçün bu il Hacıkənddə yerləşən Xan yaylağı məkan seçilib.

"Cavad xan" Tarix və Mədəniyyət Fondunun təşəbbüsü, Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi və bir sıra dövlət qurumlarının təşkilatçılığı ilə gerçəkləşəcək II Milli Yaylaq Festivalında 22 xarici ölkədən 300-ə yaxın qonağın iştirakı gözlənilir.



Xan yaylağı ərazisində yerləşən Yaylaq yurdu etno-qəsəbəsində "Cıdır meydanı", "Yaylaq bazarı", "Sənətkarlıq guşəsi", "Dədə Qorqud ocağı", "Yaylaq yatağı", "Pəhləvan meydanı", "Aşıq Ələsgər ocağı", "Yaylaq süfrəsi" kimi tematik guşələr fəaliyyət göstərəcək.

Festivalda üç gün ərzində ümumilikdə 70 mindən artıq tamaşaçının iştirakı nəzərdə tutulur. Onlar xarici ölkələrdən dəvət olunmuş etnik musiqi qruplarının ifaları, yerli kollektivlərin çıxışları, aşıq deyişməsi, milli rəqslər, xalq mahnıları, Azərbaycanda yaşayan azsaylı xalqların mədəniyyət nümunələri, səhnəciklər və teatral kompozisiyalar, qədim xalq oyunları, sənətkarlıq məhsulları, milli geyim nümunələri ilə tanış ola və təbiət qoynunda əsl yaylaq həyatı yaşaya biləcəklər.

davamı səh. 2-də

## Müəlliflik hüquqlarının təmin edilməsində aidiyyəti qurumların rolu

Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin tabeliyində olan Əqli Mülkiyyət Hüquqlarının Təminatı Mərkəzinin təşkilatçılığı ilə iyulun 22-də "Müasir mərhələdə müəlliflərin və əlaqəli hüquq sahiblərinin hüquqlarının qorunması üzrə kollektiv idarəetmə təşkilatlarının fəaliyyətləri" mövzusunda beynəlxalq konfrans keçirilib.

Tədbirin təşkilində məqsəd müəlliflik hüququ və əlaqəli hüquqların qorunmasının təşviqi, bu sahədə əmlak hüquqlarını kollektiv əsasda idarə edən təşkilatlar arasında əməkdaşlığın genişləndirilməsi, müəlliflərin (hüquq sahiblərinin) və əlaqəli hüquqların əmlak hüquqlarının kollektiv əsasda idarəçiliyinin, o cümlədən onların qonorar almaq hüquqlarının təmin edilməsi üçün təşkilatlar arasında təcrübə mübadiləsi və qarşılıqlı dəstəyin göstərilməsidir.



Əqli Mülkiyyət Agentliyi İdarə Heyətinin üzvü Sənan Tapdıqov tədbiri açaraq mövzunun aktuallığından bəhs edib.

davamı səh. 5-də

### Filmlərimizin çəkilişində istifadə olunan avadanlıqların sərgisi



səh. 7

### Qobustan qoruğunda bir sıra ölkələrin tədqiqatçıları ilə müştərək araşdırmalar aparılır

səh. 7

### Əməkdar artist Fransada caz festivalında



səh. 8

№55 (1928)
27 iyul 2022
www.medeniyyet.az

# Reza Deqati "Dostluq" ordeni ilə təltif olunub

Prezident İlham Əliyev iyulun 25-də dünya şöhrətli fotoqraf Reza Deqatinin "Dostluq" ordeni ilə təltif edilməsi haqqında sərəncam imzalayıb.

Məşhur fotoreportyor Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında çoxillik səmərəli fəaliyyətinə görə təltif edilib.

Qeyd edək ki, iyulun 26-da Reza Deqatinin 70 yaşı tamam olub. O, 1952-ci ildə Təbrizdə azərbaycanlı ailəsində dünyaya gəlib. Tehran Universitetində memarlıq üzrə təhsil alsa da, sonradan peşəkar fotoqraflığa başlayıb. 1981-ci ildə Fransaya köçüb və ABŞ-ın Milli Coğrafiya Cəmiyyəti (National Geographic Society) də daxil olmaqla dünyanın nüfuzlu təşkilatları ilə əməkdaşlığa başlayıb.

Dünyanın yüzdən çox ölkəsində, o cümlədən bir çox qaynar nöqtələrdə fotojurnalist kimi çalışan Reza Deqati ötən əsrin 90-cı illərindən etibarən Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü və otuz ilə yaxın sürən işğalla bağlı, eləcə də 2020-ci ilin 44 günlük müharibəsi zamanı və tarixi Zəfərdən sonra çəkdiyi fotolarla Azərbaycan həqiqətlərinin dünyaya yayılmasına mühüm töhfələr verib.

# "Qarabağdan doğan Günəş və Ay"




əvvəli səh. 1-də

Azərbaycanın haqq savaşına dəstək verən Türk dünyasına minnətdarlığını bildirən millət vəkili Şuşanın işğaldan azad olunandan sonra "Türk Dünyasının Mədəniyyət Paytaxtı" elan edilməsinin böyük rəmzi məna kəsb etdiyini dedi.

Qədim şəhərdə yetişən görkəmli şəxsiyyətlərdən bəhs edən Qənirə Paşayeva "Şuşa Azərbaycan ziyalılarının yetişdiyi mərkəz idi. Bu torpaqda həm də Türk dünyasının tanınmış şəxsiyyətlərindən olan Əhməd Ağaoğlu və Sürəyya Ağaoğlu yetişib" dedi.

Sonra "Qarabağdan doğan Günəş və Ay. Xurşidbanu Natəvan. Fatma xanım Kəminə" kitabının rəmzi lenti kəsildi və iştirakçılara təqdim olundu.

Qənirə Paşayeva Azərbaycanın Xalq rəssamı Sakit Məmmədovun "Türk dünyası qadınları" silsiləsindən üç tablonu TÜRKSOY-a hədiyyə etdi.

Baş katib Sultan Raev millət vəkili Qənirə Paşayevaya TÜRKSOY-un "Şərəf" medalını təqdim etdi.

TADƏHF rəhbəri, professor Aygün Attar, Keçiörən Bələdiyyəsi başqanı Turqut Altınok və başqa çıxış edənlər təqdim olunan kitabın əhəmiyyəti barədə fikirlərini bölüşdülər.

Sonra Milli Məclisin Mədəniyyət komitəsinin dəstəyi ilə hazırlanan Xurşidbanu Natəvan haqqında qısametrajlı film nümayiş etdirildi.

Tədbirin bədii hissəsində Azərbaycan Televiziyası "Azərbaycantelefilm" Yaradıcılıq Birliyində ərsəyə gələn filmin rejissoru Elnurə Kazımova Natəvanın məşhur "Qərənfil" şeirini söylədi, Elçin Hətəmlinin tarda ifası səsləndi.

**Mehparə Sultanova**
**Ankara**

# Prezident dövlət məmurlarına bir daha xəbərdarlıq etdi

## "Kiminsə tamahına, şəxsi maraqlarına görə ölkəmizin uğurlu inkişafına kölgə sala bilmərik"



əvvəli səh. 1-də

Dövlət başçısı qeyd edib ki, son illərdə regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrası nəticəsində bütün rayonlarda geniş abadlıq-quruculuq işləri görülüb, böyük infrastruktur layihələri icra edilib, uzun illər ərzində insanları narahat edən problemlərin böyük hissəsi aradan qalxıb. Rayonların sosial-iqtisadi inkişafına bunun çox böyük töhfəsi olub. Çünki infrastruktur olmadan heç bir inkişafdan söhbət gedə bilməz.

Prezident bildirib ki, bununla bərabər yerlərdə məsul vəzifələrə təyin olunan ayrı-ayrı şəxslərin fəaliyyətində neqativ hallara da rast gəlinir: "Bilirsiniz ki, bir neçə keçmiş icra başçısı cinayət məsuliyyətinə cəlb edilmişdir, bəzilərinin hökmü verilmişdir, bəzilərinin işləri məhkəmədədir. Bu onu göstərir ki, heç kim qanundan üstün ola bilməz. Mən bütün icra başçılarını vəzifəyə təyin edərkən göstərişlərimdən biri o idi ki, korrupsiyaya, rüşvətxorluğa qarşı biz amansız mübarizə aparmalıyıq və icra başçıları burada nümunə olmalıdırlar. Əfsuslar olsun ki, bəziləri əyri yolla gediblər və bu gün bunun acısını çəkirlər. Bu, hər bir dövlət məmuru üçün dərs olmalıdır".

Dövlət başçısı qeyd edib ki, sosial ədalət, bütövlükdə ədalət prinsipləri cəmiyyətin əsas prinsiplərindən biridir və icra başçısı təyin olunan şəxs də fəaliyyətində sosial ədalət prinsipinə əməl etməlidir. Şəhid ailələrinə xüsusi diqqət göstərilməlidir. "Bilirsiniz ki, mənim şəhid ailələri, müharibə əlilləri ilə çoxsaylı görüşlərim olub. Onların məişət problemləri dövlət xətti ilə həll olunur, 12 min 500-dən çox şəhid ailəsinə dövlət tərəfindən mənzillər, fərdi evlər verilmişdir, minlərlə minik maşınları verilmişdir. Bu proses davam etdirilir. Bakı, Sumqayıt və Abşeron rayonlarında şəhid ailələrinin evlə təminatı məsələləri artıq yekunlaşmaq üzrədir. Digər rayonlarda da dövlət xətti ilə bu iş görüləcək. Yəni, dövlət öz üzərinə düşən vəzifəni icra edir. O cümlədən şəhid ailələrini, müharibə əlillərini işlə təmin etmək üçün çoxsaylı tədbirlər həyata keçirilir. Əsas odur ki, yerlərdə də bu kateqoriyadan olan insanlara diqqət göstərilsin. Rayon icra orqanlarının nümayəndələri onlara biganə qalmasınlar, əksinə, daim onların yaşayışı ilə maraqlansınlar, onların məşğulluğu ilə maraqlansınlar", – deyə İlham Əliyev bildirib.

Prezident vurğulayıb ki, biz bu Qələbəni şəhidlərimizə, müharibə əlillərinə, müharibə iştirakçılarına borcluyuq: "Əlbəttə, dövlət qətiyyət göstərdi, biz öz iradəmizi ortaya qoyduq, heç nəyə baxmadan, heç kimdən çəkinmədən, "öldü var, döndü yoxdur" deyərək torpaqlarımızı azad etdik. Bu, dövlət siyasətidir və dövlətin gücüdür, vətəndaşlarımızın həmrəyliyidir. Amma onu da heç kəs unutmamalıdır ki, azad edilmiş torpaqlarımıza bayrağımızı sancan bizim qəhrəman əsgər və zabitlərimiz olub. Onlar öz canlarını fəda edib, onlar sağlamlığını itirib, onlar heç nəyə baxmadan, qorxmadan ölümə gedərək Vətənimizi işğalçılardan xilas ediblər. Ona görə hər bir dövlət məmurunun, nəinki dövlət məmurunun, hər bir insanın borcudur ki, onlara arxa, dayaq olsun. Yenə də deyirəm, dövlət və mən Prezident kimi daim onların problemləri ilə maraqlanıram, bu problemləri həll edirəm, daim onlarla bir yerdəyəm. Hər bir dövlət məmuru da, bax, eyni hərəkətlər etməlidir".

Dövlət başçısı həmçinin hər bir rayon rəhbərinin təşəbbüskarlıq göstərməsinin vacibliyini diqqətə çatdırıb. Bildirib ki, bəzi hallarda yerli icra orqanları gözləyirlər ki, dövlət tərəfindən hansısa layihələr icra ediləcək, ya da sahibkar gəlib onların qapısını döyəcək: "Siz özünüz sahibkarları rayonlarınıza cəlb etməlisiniz, həm yerli sahibkarları, həm də xarici sahibkarları. Xüsusilə nəzərə alsaq ki, Göygöl, Masallı və Lerik rayonlarının turizm potensialı çox zəngindir... Eyni zamanda, hər üç rayonda kənd təsərrüfatının inkişafı üçün də çox gözəl imkanlar var. Burada da müasir tələblərə uyğun kənd təsərrüfatı yaradılmalıdır".

Prezident bildirib ki, yerlərdə kənd təsərrüfatı üçün nəzərdə tutulan torpaqların istifadəsində ciddi pozuntular var, torpaqların qanunsuz zəbt edilməsi prosesi, əfsuslar olsun ki, geniş vüsət alıb: "Bu, təkcə regionlara aid olan məsələ deyil, Bakı şəhərində, Abşeron yarımadasında da belə hallar var. Yəqin siz də bilirsiniz, bu yaxınlarda ictimaiyyətin bir qrup nümayəndəsi mənə müraciət etmişdir ki, böyük tarixə malik olan Buzovna qayaları bəzi insanlar tərəfindən zəbt edilmişdir. Mən Bakı Şəhər İcra Hakimiyyətinin başçısına dərhal göstəriş verdim ki, bu məsələ araşdırılsın, mənə məruzə edilsin və mənə məruzə edildi. Çox böyük pozuntular aşkarlandı, çox böyük pozuntular. Bu qanunsuz əməllərə kimlər əl atıb? Dövlət məmurları və bəzi dırnaqarası sahibkarlar! Onların da siyahısı var. Bu, tarixə qarşı, bizim təbiətimizə qarşı cinayətdir. Bu qayalar Bakının rəmzidir, bu qayalar əsrlər boyu sahilimizin gözəlliyini əks etdirirdi. Bu qayalara insanlar yaxınlaşırdı, orada filmlər çəkilirdi. Kimsə bunu zəbt edir, onları sındırır, özləri üçün villa tikir".

"Əfsuslar olsun ki, belə hallar çoxdur. Bu gün bir daha demək istəyirəm ki, bu hallara qarşı çox ciddi mübarizə aparılır. Çünki idarəetmədə çox ciddi islahatlar aparılır, çox böyük təmizləmə işləri aparılır. Bu işlərə rəvac verən və bəzi dövlət məmurlarını, yerli icra orqanlarını bu qanunsuz işlərə təhrik edən insanlar hakimiyyətdən uzaqlaşdırıldı. Hakimiyyət təmizlənir və insanlar da bunu görürlər. Ona görə siz dövlət məmurları kimi bu hallara çox ciddi fikir verməlisiniz. Bunu mən sizə deyirəm və bütün dövlət orqanlarının nümayəndələrinə deyirəm, eyni zamanda, qanunsuz işlərlə məşğul olmaq istəyən insanlara deyirəm: Əl çəkin bundan! Cəzalandırılacaqsınız və cəzalandırılırlar. Biz kiminsə tamahına, kiminsə şəxsi maraqlarına görə ölkəmizin uğurlu inkişafına kölgə sala bilmərik", – deyə İlham Əliyev əlavə edib.

Prezident vurğulayıb ki, hər bir rayonda, hər bir yerdə müasir idarəetmə qaydaları tətbiq olunarsa, bir çox problemlər aradan qaldırılacaq. Dövlətin siyasəti bundan ibarətdir: "Azərbaycanın çox böyük perspektivləri var, çox böyük potensialı var, xüsusilə İkinci Qarabağ müharibəsindəki tarixi Zəfərimizdən sonra ki, biz bu ədalətsizliyə də son qoyduq, öz gücümüzlə tarixi ədaləti bərpa etdik. Biz müzəffər xalq kimi yaşayırıq, ləyaqətlə yaşayırıq və ölkəmizdə işlər elə getməlidir ki, heç bir narahatedici problem olmasın, heç bir ədalətsizlik olmasın...".

# Mədəniyyət Nazirliyinin dəstəyi ilə Milli Yaylaq Festivalı keçiriləcək



əvvəli səh. 1-də

Mədəniyyət nazirinin birinci müavini Elnur Əliyev Hacıkənddə Xan yaylağında festivala hazırlıq işlərinin gedişi ilə tanış olub. Təşkilati məsələlərlə, yaylaq ərazisində mədəniyyət guşələrinin və səhnələrin qurulması, mədəni proqramın tərtibi, kollektivlərin çıxışları, logistika məsələləri barədə məlumat alan Elnur Əliyev festivalın layihə rəhbəri, "Cavad xan" Tarix və Mədəniyyət Fondunun vitse-prezidenti Müzadil Həsənov, təşkilat komitəsinin üzvləri ilə və könüllülük proqramı üzrə seçilmiş gənclərlə görüşüb.

Görüşdə qeyd olunub ki, mədəniyyətin gənclər üçün əlçatan olması, milli mədəniyyətə sahib çıxması baxımından könüllülərin və ümumiyyətlə, gənclərin tədbirdə iştirakı vacibdir. Azərbaycan gəncliyinin mədəni proseslərdə fəal iştirakı Mədəniyyət Nazirliyinin strateji məqsədlərindəndir.

Festivala hazırlıq işlərinin tamamlanması və təşkilati məsələlərin həlli üçün tapşırıq və tövsiyələrini verən Elnur Əliyev bildirib ki, Mədəniyyət Nazirliyi milli mədəniyyətin təbliğinə yönəlmiş bu layihəyə xüsusi önəm verir və onun yüksək səviyyədə keçirilməsi üçün bütün lazımi dəstəyi göstərir. Vurğulanıb ki, Azərbaycan mədəniyyətinin, tarixinin tanıdılması nazirliyin fəaliyyətinin prioritet istiqamətlərindən biridir. Nazirliyin bu istiqamətdə həyata keçirdiyi tədbirlər, o cümlədən "Yurd" layihəsi haqqında məlumat verilib.



Qeyd edək ki, festival məkanında milli mədəniyyətimizin canlandırılması – tədbirin bədii proqramının, açılış və bağlanış mərasimlərinin təşkili, oyun və konsert səhnələrinin quraşdırılması Mədəniyyət Nazirliyinin dəstəyi ilə həyata keçirilir.

II Milli Yaylaq Festivalının bədii proqramına Akademik Musiqili Teatr, Pantomima Teatrı, Şuşa Dövlət Musiqili Dram Teatrı, Bakı Dövlət Sirki, Gəncə Dövlət Dram Teatrı, Gəncə Dövlət Kukla Teatrı, Gəncə Dövlət Filarmoniyası, həmçinin Gəncə, Masallı və Şəki regional mədəniyyət idarələrinin musiqi, rəqs və folklor kollektivlərinin çıxışları daxildir.

Festival şərti olaraq üç hissədən ibarət olacaq: mədəni-etnoqrafik hissə; milli yaylaq (idman) oyunları; eko-etnoturizm.

Festival Mədəniyyət Nazirliyi ilə yanaşı, TİKA – Türk Əməkdaşlıq və Koordinasiya Agentliyi, Gənclər və İdman Nazirliyi, Dünya Etnoidman Konfederasiyası, Dövlət Turizm Agentliyi, Dövlət Məşğulluq Agentliyi, KOBİA, Kənd Təsərrüfatı Nazirliyi, Gəncə Şəhər İcra Hakimiyyəti, Göygöl Rayon İcra Hakimiyyəti və digər qurumların tərəfdaşlığı və dəstəyi ilə gerçəkləşəcək.

Milli Yaylaq Festivalının rəsmi saytı – myf.az fəaliyyət göstərir. Saytda festival proqramı barədə ətraflı məlumat almaq, həmçinin iştirak üçün qeydiyyatdan (o cümlədən media üçün akkreditasiya) keçmək mümkündür.

# Ölkənin gələcəyi üçün mədəni və yaradıcı cəmiyyətin inkişafı xüsusi önəm daşıyır

əvvəli səh. 1-də

Prezidentin sərəncamında "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda nəzərdə tutulmuş tədbirlərin əlaqələndirilməsini, icrasına nəzarəti və hesabatlılığını həyata keçirmək Nazirlər Kabinetinə tapşırılıb.

Nazirlər Kabineti Strategiyanın həyata keçirilməsi ilə bağlı görülən işlər, o cümlədən nəzərdə tutulmuş tədbirlərin icra vəziyyəti barədə ildə iki dəfə Azərbaycan Respublikasının Prezidentinə məlumat verməli, icrası davam etməkdə olan konsepsiya, strategiya, dövlət proqramı, milli fəaliyyət planları və bu kimi digər sənədlərin Strategiya ilə əlaqələndirilməsi istiqamətində zəruri tədbirlər görməlidir.

Strategiyada nəzərdə tutulmuş tədbirlərin icrasının monitorinqini və qiymətləndirilməsini, Azərbaycan Respublikası Nazirlər Kabinetinin sifarişi əsasında, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi həyata keçirəcək.

Strategiyada sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər (Azərbaycan – 2030) üzrə nailiyyətlər və çağırışlar, qarşıda duran vəzifələr diqqətə çatdırılır.

Strategiyanın "Dayanıqlı artan rəqabətqabiliyyətli iqtisadiyyat üzrə strateji çərçivə" adlı bölümündə qeyd edilir ki, ölkə iqtisadiyyatının şaxələndirilməsi və qeyri-neft ixracının artırılması hesabına davamlı və yüksək iqtisadi artım təmin olunacaq. Keyfiyyətli məhsul və xidmətlərin ixracı hesabına ölkə iqtisadiyyatı qlobal dəyər zəncirinə inteqrasiya ediləcək. Bu məqsədlə daha sağlam və rəqabətli biznes mühiti yaradılacaq, sahibkarlığın inkişafına dövlət geniş dəstək verəcək. Dövlətə məxsus olan hüquqi şəxslərin effektivliyi artırılacaq, onların hesabatlılığı gücləndiriləcək. Nəticədə ölkə iqtisadiyyatı hər il orta hesabla 3–4%, qeyri-neft/qaz ÜDM-i isə illik orta hesabla 5% artacaq. Özəl sektorun iqtisadiyyatda payı 88%-ə çatdırılacaq.

Eyni zamanda rəqəmsal texnologiyaların tətbiqi imkanlarının genişləndirilməsi üçün normativ hüquqi baza yaradılacaq. Rəqəmsal texnologiyaların inkişafı məqsədilə xüsusi fondlar və inkişaf institutları fəaliyyət göstərəcək, bu əsasda internet, yüksəksürətli mobil internet (5G texnologiyası daxil olmaqla), xüsusilə genişzolaqlı internet xidmətlərinin əhatəsi ölkə üzrə 95 faizə çatacaq.

"İşğaldan azad olunmuş ərazilərə Böyük Qayıdış üzrə strateji çərçivə" adlı bölümdə vurğulanır ki, azad edilmiş ərazilərdə əhalinin dayanıqlı məskunlaşması zəruri ilkin şərtlərin yaradılması ilə dəstəklənəcək. İşğaldan azad edilmiş ərazilərin təhlükəsizlik sistemi və infrastrukturla tam şəkildə əhatəsinə nail olunacaq. Qabaqcıl şəhərsalma qaydaları nəzərə alınmaqla bölgədə yaşayış və qeyri-yaşayış kompleksləri inşa ediləcək, müasir infrastruktura malik "ağıllı şəhər və ağıllı kənd" konsepsiyaları həyata keçiriləcək. Bu əsasda bütün bölgə qabaqcıl standartlara uyğun sosial-iqtisadi və mədəni infrastrukturla tam təmin ediləcək.

Strategiyanın Tədbirlər planında da bir sıra vacib sahə və istiqamətlərlə bərabər mədəniyyət və yaradıcı sahəyə də ayrıca yer ayrılıb.

"Mədəni və yaradıcı cəmiyyətin inkişafının təşviqi" adlı fəaliyyət istiqamətində 2022–2026-cı illərdə Mədəniyyət Nazirliyi və aidiyyəti qurumlar tərəfindən mədəniyyət və yaradıcılıq sahələrində bacarıqların inkişafını təşviq edən maarifləndirici təşəbbüslərin, bu sahələrdə bacarıqların inkişafına dair tədbirlərin həyata keçirilməsi, o cümlədən maarifləndirmə sahəsində hər il 1 qrant proqramının və mədəniyyət sahəsində məlumatların artırılmasına yönəlmiş 2 yeni layihənin icrası nəzərdə tutulur.

Bundan əlavə, Mədəniyyət Nazirliyi və aidiyyəti qurumlar tərəfindən 2022–2026-cı illərdə mədəniyyət və yaradıcılıq sahəsində media platformalarının yaradılması və fəaliyyətinin təmin edilməsi, o cümlədən media platformaları üzrə məlumatların çatdığı auditoriyanın hər il 10% artması, "E-culture" Azərbaycan mədəniyyətinin rəqəmsallaşması layihəsi çərçivəsində hər il yazılı və media məlumatlarının ümumi həcminin artması üzrə müsbət dinamikaya nail olunması, platforma çərçivəsində özəl təşkilatlarla hər il 2 yeni layihənin icrası həyata keçirilməlidir.

Tədbirlər planında "Azərbaycan mədəniyyətinin təbliği çərçivəsində yaradıcılıq sahələrinin inkişafının dəstəklənməsi" istiqaməti üzrə Mədəniyyət Nazirliyi, Əqli Mülkiyyət Agentliyi və aidiyyəti qurumlar tərəfindən 2022–2026-cı illərdə strateji ölkələrdə Azərbaycanın yaradıcı mədəniyyətinə dair hər il 5 yeni tədbirin keçirilməsi, dövrün sonunda xaricdə yerləşən aparıcı muzey və kitabxanalarda 10 yeni guşənin yaradılması, eləcə də hər il 1 yeni yüksəkkeyfiyyətli filmin yaradılması, Azərbaycan mədəniyyətinin təbliği məqsədilə keçiriləcək forumlarda hər il tərəfdaş sayının artım tempinin təmin olunması və dövrün sonunadək 5 strateji ölkədə mədəni mərkəzlərin açılması nəzərdə tutulur.

# Yerlərdə mədəni fəaliyyət dövrün tələblərinə cavab verirmi?

## Nazir Anar Kərimov Qəbələ və İsmayıllıda mədəniyyət müəssisələrinin fəaliyyəti ilə tanış olub

Xəbər verdiyimiz kimi, mədəniyyət naziri Anar Kərimov iyulun 21-də Qəbələ rayon Mədəniyyət Mərkəzində vətəndaşları qəbul edib. Qəbuldan sonra nazir icra başçısının müşayiəti ilə Qəbələdə bir sıra mədəniyyət müəssisələrində olub, tarixi abidələri ziyarət edib.

Mədəniyyət Nazirliyi tərəfindən əsaslı təmir edilən Qəbələ şəhər Uşaq incəsənət məktəbinə baxış zamanı bildirilib ki, 1969-cu ildə fəaliyyətə başlayan tədris ocağında hazırda 332 şagird təhsil alır, 66 müəllim çalışır.

Sonra nazir Qəbələ rayon Heydər Əliyev Mərkəzi ilə tanış olub. 2007-ci ildən fəaliyyət göstərən mərkəzdə ulu öndərin həyatının və dövlətçilik fəaliyyətinin müxtəlif dövrlərini əks etdirən ekspozisiya yaradılıb. Burada Heydər Əliyevin müxtəlif illərdə Qəbələyə səfərləri ilə bağlı fotolar da nümayiş olunur.

Baxış keçirilən növbəti məkan Qəbələ Tarix-Diyarşünaslıq Muzeyi olub. Məlumat verilib ki, muzeydə arxeologiya, etnoqrafiya, numizmatika, qədim əlyazmalar, nadir kitablar, xalq yaradıcılığı nümunələri və rayonun təbii sərvətlərini əks etdirən eksponatlar Qəbələnin tarixi keçmişi, mədəni irsi, təbiəti, iqtisadi inkişafı və s. haqqında geniş təsəvvür yaradır. Muzeyin fondunda Qəbələdə aparılan arxeoloji qazıntılar zamanı aşkar edilmiş çoxsaylı artefaktlar da toplanıb.

Səfər çərçivəsində 130 min nüsxə kitab fondu olan rayon Mərkəzi Kitabxanasına da baxış keçirilib, kitabxananın fəaliyyəti barədə məlumat verilib.

Anar Kərimov rayon mərkəzindən 18 kilometr cənub-qərbdə, indiki Çuxur Qəbələ və Tövlə kəndləri ərazisində yerləşən, qədim Qəbələ şəhərinin qalıqları üzərində yaradılan Qəbələ Dövlət Tarix-Bədii Qoruğuna və Qəbələ Arxeoloji Mərkəzinə də baş çəkib, arxeoloji qazıntılar zamanı aşkar olunan eksponatlarla tanış olub. Məlumat verilib ki, Qəbələ Dövlət Tarix-Bədii Qoruğu 1978-ci ildə yaradılıb. Qoruq tarix, mədəniyyət, memarlıq, etnoqrafik, arxeoloji abidələrin, eləcə də tarixi hadisə və şəxsiyyətlərlə bağlı olan xatirə yerlərinin və onların əşyalarının yerləşdiyi ərazini əhatə edir. 2005-ci ildən SEBA (Seul-Bakı) Azərbaycan-Koreya Mədəniyyət Mübadiləsi Assosiasiyasının təşəbbüsü və maliyyə dəstəyi ilə AMEA-nın



Arxeologiya və Etnoqrafiya İnstitutunun arxeoloqları, 2009-cu ildən isə onlarla birlikdə Cənubi Koreyadan olan arxeoloqlar qoruq ərazisində qazıntılar aparır.

Nazir burada "Qafqaz Albaniyasının paytaxtı – Qəbələ" filminə baxıb. Daha sonra Anar Kərimov Qəbələdə arxeoloji qazıntıların aparıldığı Səlbir və Qala ərazilərinə baş çəkib.

Mədəniyyət naziri Qəbələ rayonunun Nic qəsəbəsində Müqəddəs Məryəm Ana kilsəsini (XIX əsr) və Müqəddəs Yelisey adına Cotari kilsəsini (XIX əsr) də ziyarət edib. Məlumat verilib ki, Müqəddəs Məryəm Ana alban kilsəsi 2020-ci ildə Heydər Əliyev Fondu tərəfindən əsaslı şəkildə bərpa edilib. Cotari alban-udi kilsəsi yerli sakinlərin vəsaiti hesabına 1723-cü ildə inşa edilib. Kilsənin adı qəsəbədəki Cotari məhəlləsinin adından götürülüb.

Mədəniyyət müəssisələri ilə tanışlıqdan sonra nazir Anar Kərimov rayon Mədəniyyət Mərkəzində Qəbələ Xalq teatrının üzvləri ilə görüşüb, Qəbələ və İsmayıllı rayonlarının bədii kollektivlərinin ifasında konsert proqramını izləyib.

Konsertdə Qəbələ rayon İncəsənət məktəbinin xor kollektivi və nağaraçalanlar qrupu, Nic qəsəbə Mədəniyyət evinin "Cəngi" qrupu, İsmayıllı rayon İvanovka kənd Mədəniyyət evinin "Slavyanoçka" folklor kollektivi, Lahıc qəsəbə Mədəniyyət evinin "Lahıc" folklor qrupu və başqa kollektivlər çıxış edib.

***

Mədəniyyət Nazirliyi sistemində fəaliyyətin və idarəçiliyin təkmilləşdirilməsi, regionlardakı mədəniyyət müəssisələrində işin effektivliyinin artırılması məqsədilə bölgələrə səfər planı üzrə nazir Anar Kərimov iyulun 22-də İsmayıllı rayonunda olub.

Anar Kərimov və rayonun icra başçısı Nahid Bağırov əvvəlcə İsmayıllı şəhərində ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edib, önünə gül dəstəsi qoyublar.



Sonra nazir 2009-cu ildən fəaliyyət göstərən İsmayıllı rayon Heydər Əliyev Mərkəzinə baş çəkib. Mərkəzlə tanışlıq zamanı bildirilib ki, burada ulu öndərin dövlətçilik irsini əks etdirən ekspozisiya yaradılıb. Mərkəzdə rəssamlıq, şahmat və bacarıqlı əllər dərnəkləri də fəaliyyət göstərir.

Mədəniyyət naziri daha sonra İsmayıllı rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin fəaliyyəti ilə tanış olub, Uşaq şöbəsinə baxış keçirib. Ktabxananın ümumi fəaliyyəti, kitab fondu, oxucu sayı barədə məlumat verilib.

Anar Kərimov İsmayıllı şəhər Fazil Əzimov adına Uşaq incəsənət məktəbində də olub. Qeyd olunub ki, fortepiano, tar, qarmon, kamança, nağara, xanəndəlik, rəssamlıq, xoreoqrafiya ixtisasları üzrə tədris aparıldığı məktəbdə 69 nəfər müəllim çalışır, 292 şagird təhsil alır.

Səfər çərçivəsində həmçinin 2012-ci ildən fəaliyyət göstərən İsmayıllı Dövlət Rəsm Qalereyasına, 1981-ci ildə yaradılan İsmayıllı Tarix-Diyarşünaslıq Muzeyinə baxış keçirilib.

Nazir İsmayıllı şəhidlərinin uyuduğu məzarlığı da ziyarət edib, 44 günlük Vətən müharibəsində canından keçən qəhrəman oğulların xatirəsinə dərin ehtiramını bildirib.

Anar Kərimov İsmayıllı şəhərinin mərkəzində XIX əsrə aid yerli əhəmiyyətli memarlıq abidəsi olan məscidə də baş çəkib. Məlumat verilib ki, dövlət qeydiyyatında olan (inv. № 4356) tarixi tikili dördbucaqlı plan quruluşuna malikdir, divarları çaylaq daşı ilə hörülüb. Üç giriş qapısından birinin üstündə daş kitabə həkk olunub.

Sonra İsmayıllı rayonunun Diyallı kəndinə gələn nazir burada mədəniyyət evinə və rayon MKS-nin kitabxana filialına baxış keçirib. Hər iki mədəniyyət ocağı 1985-ci ildə tikilən binanın müvafiq olaraq 1-ci və 2-ci mərtəbələrində yerləşir. Kitabxana filialının 12 minə yaxın kitab fondu var.

# İsmayıllı, Ağsu, Şamaxı, Qobustan, Qəbələ rayonlarının mədəniyyət işçiləri ilə görüş

Mədəniyyət naziri Anar Kərimov iyulun 22-də İsmayıllı rayonuna səfəri zamanı rayondakı Heydər Əliyev adına Mədəniyyət Mərkəzinin fəaliyyəti ilə də tanış olub. Nazirə məlumat verilib ki, mədəniyyət müəssisəsi 1976-cı ildən fəaliyyət göstərir, 2014-cü ildən ulu öndərin adını daşıyır. Burada Xalq teatrı, "Niyal" instrumental ansamblı fəaliyyət göstərir.



Mərkəzdə nazir Anar Kərimovun İsmayıllı, Ağsu, Şamaxı, Qobustan, Qəbələ rayonlarında fəaliyyət göstərən mədəniyyət işçiləri ilə görüşü keçirilib. Görüşdə Mədəniyyət Nazirliyinin məsul əməkdaşları da iştirak ediblər.

Anar Kərimov çıxış edərək bildirib ki, müntəzəm olaraq bölgələrə səfərlərinin əsas məqsədi yerlərdə mədəniyyət müəssisələrinin fəaliyyəti ilə tanış olmaq, mövcud potensialı, imkanları müəyyənləşdirmək, mədəniyyət və incəsənət sahəsində fəaliyyət göstərən şəxsləri nazirliyin prioritetləri və qarşıya qoyulan məqsədləri barədə yerində məlumatlandırmaqdır. Həmin şəxslərin nazirlik tərəfindən aparılan islahatlara cəlb edilərək mədəniyyət sahəsinin dayanıqlı inkişafına töhfə verilməsi də qarşıda duran əsas vəzifələrdəndir.

Görüş zamanı mədəniyyət müəssisələrində mövcud olan problemlərdən söz açılıb, onların həlli yolları ilə bağlı təkliflər dinlənilib.

Anar Kərimov bölgələrdə mədəniyyət işçiləri arasında peşəkarlıq səviyyəsinin, təşəbbüskarlığın artırılmasının dövrün vacib tələbi olduğunu diqqətə çatdırıb. Bildirib ki, nazirlik tərəfindən bu istiqamətdə də layihələr həyata keçirilir. İyun ayında nazirliyin "Kommunikasiya meneceri" layihəsi çərçivəsində regional mədəniyyət idarələri üzrə media menecerlərinin bilik və bacarıqlarının artırılması məqsədilə ADA Universitetində treninqlər təşkil edilib. Bölgələrdəki muzey işçiləri üçün də müvafiq təlimlərə başlanılıb. Həmçinin kitabxana işi və digər sahələr üzrə peşə bacarıqlarının təşviqi istiqamətində layihələr nəzərdə tutulur.

Nazir çıxışının sonunda problemlərin aradan qaldırılması, müəssisələrin daha səmərəli fəaliyyətinin təşkili ilə bağlı tapşırıq və tövsiyələrini verib.

# Qətərlə mədəni əlaqələr müzakirə edilib

Azərbaycan Respublikasının Qətər Dövlətindəki səfiri Rəşad İsmayılov Dohada yerləşən "Qatara" mədəniyyət şəhərciyinin baş direktoru Khalid al-Sulayti ilə görüşüb. Görüşdə iki ölkə arasında mədəni əlaqələrin perspektivləri müzakirə olunub.

Söhbət zamanı qeyd olunub ki, 2021-ci ilin sentyabrında "İçərişəhər" Dövlət Tarixi Memarlıq Qoruğu İdarəsi və "Qatara" Mədəniyyət Şəhərciyi Fondu arasında əməkdaşlıq haqqında memorandum imzalanıb. Ötən il dekabrın 8-də isə "Qatara" mədəniyyət şəhərciyində Azərbaycan-Qətər dostluq əlaqələrini təcəssüm edən "Qardaşlıq" abidəsi açılıb.

Görüşdə mədəniyyət sahəsində əməkdaşlığın yeni imkanları, mümkün layihələr ətrafında fikir mübadiləsi aparılıb.

# Moskvada "Uşaq kitabı həftəsi"ndə rəsm və qiraət müsabiqələri

## Bakı məktəbliləri də uğur qazanıblar

Moskva şəhərində MDB Kitab Yayımı Assosiasiyası, Rusiyanın Rəqəmsal İnkişaf, Rabitə və Kütləvi Kommunikasiyalar Nazirliyinin dəstəyi ilə ənənəvi "Uşaq kitabı həftəsi" çərçivəsində uşaq və gənclərin rəsm – bədii qiraət müsabiqələri təşkil edilib.




Müsabiqəyə Bakı Şəhər Mədəniyyət Baş İdarəsi Yasamal rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin (MKS) oxucuları da qatılıblar.

Müsabiqəyə bu il yubileyləri qeyd olunan yazıçıların əsərlərinin motivlərinə çəkilmiş rəsmlər təqdim olunub.

M.Ş.Vazeh adına Yasamal rayon Mərkəzi Kitabxanası tərəfindən müsabiqəyə 12 ən yaxşı rəsm əsəri – Azərbaycan Milli Konservatoriyası nəzdində İncəsənət Gimnaziyasının 11 şagirdi və 175 nömrəli orta məktəbin bir şagirdinin əl işləri göndərilib.

Onlar müsabiqənin qalibi olduqları üçün diplomlarla təltif olunub, çəkdikləri rəsmlər müsabiqənin albomunda yer alıb.

Bu il "Uşaq kitabı həftəsi" çərçivəsində gənc qiraətçilərin müsabiqəsi 2022-ci ildə yubileyləri qeyd olunan rus şairləri Samuil Marşak, Bella Axmadulina, Robert Rojdestvenski və Marina Svetayevanın yaradıcılığına həsr olunub. Onların şeirlərinin məktəblilərin ifasında qiraətinin videoçəkilişləri kitabxanaya təqdim edilib və ən yaxşı ifalar Moskvaya göndərilib. Kitabxananın oxucuları Hüseyn Abdullazadə, Selin Əlizadə, Aişə Hidayətli, Eldar Babayev, Aylin Nəcəfli, Mariya Quliyeva, Nicat Tahirov, Xədicə Talıbzadə və Amin Nəzərli müsabiqənin diplomları ilə təltif olunublar.

# "Qarabağ gecəsi" xeyriyyə konsertinin iştirakçıları təltif olunublar

Xəbər verdiyimiz kimi, Mədəniyyət Nazirliyi və Qarabağ Dirçəliş Fondunun (QDF) birgə təşkilatçılığı ilə iyunun 26-da M.Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasında "Qarabağ gecəsi" adlı xeyriyyə konserti keçirilmişdi. Tədbir "Avrora Qrup"un baş sponsorluğu, "İtaldizayn" QSC-nin sponsorluğu və "Azərbaycan Televiziya və Radio Verilişləri" QSC-nin informasiya dəstəyi ilə reallaşmışdı.



Konsertdən sonra Azərbaycan Respublikasının mədəniyyət naziri Anar Kərimov, QDF İdarə Heyətinin sədri Rəhman Hacıyev, QDF Müşahidə Şurasının üzvləri – millət vəkili Fatma Yıldırım, Bakı Musiqi Akademiyasının rektoru, Xalq artisti Fərhad Bədəlbəyli tərəfindən konsertin ərsəyə gəlməsində həmrəylik və dəstək nümayiş etdirən donorlara Qarabağ Dirçəliş Fondunun "Təşəkkür sertifikatı" təqdim edilmişdi.

İyulun 22-də Azərbaycan Dövlət Akademik Filarmoniyasında keçirilən mərasimdə konsert proqramının ərsəyə gəlməsində əməyi olanlara, o cümlədən sənətçilərə Mədəniyyət Nazirliyi və Qarabağ Dirçəliş Fondunun "Təşəkkür sertifikatı" təqdim olunub.

Mədəniyyət Nazirliyi Aparatının rəhbəri Vüqar Məmmədovun iştirak etdiyi mərasimdə Qara Qarayev adına Azərbaycan Dövlət Kamera Orkestri, Xalq artistləri Fəxrəddin Kərimov, Fərhad Bədəlbəyli, Əməkdar artistlər Aygün Mübariz, Arzu Əliyeva, Ceyla Seyidova, Nərgiz Əliyeva, ifaçılar Günay İmamverdiyeva, Babək Şuşalı, Cəlal Kərimov, tarzən Rövşən Qurbanov, eləcə də "Qarabağ gecəsi"nin aparıcıları və Azərbaycan Dövlət Akademik Filarmoniyasının nümayəndəsi təltif olunublar.

Xeyriyyə konsertindən əldə edilən vəsait işğaldan azad olunan ərazilərin bərpası və yenidən qurulması istiqamətində həyata keçirilən tədbirlərə yönəldiləcək.

# Qoşulmama Hərəkatı ölkələrinin gəncləri Bakıda bir araya gəliblər



İyulun 25-də Bakıda Qoşulmama Hərəkatının (QH) Gənclər Sammiti işə başlayıb.

QH-yə üzv olan 60-dan çox ölkənin gənc nümayəndəsinin iştirak etdiyi sammitin açılış mərasimində gənclər və idman naziri Fərid Qayıbov qonaqları salamlayıb və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iştirakçılara müraciətini oxuyub.

Dövlət başçısının müraciətində bildirilib ki, Azərbaycanda gənclər siyasətinə müstəsna əhəmiyyət verilir və hazırda ölkəmizdə keçirilməkdə olan bu tədbir Hərəkat ölkələrinin gəncləri arasında əməkdaşlığın möhkəmləndirilməsinə töhfə verəcək. Müraciətdə Azərbaycanın Qoşulmama Hərəkatına uğurlu sədrliyinə diqqət çəkilib və qeyd olunub ki, Hərəkata üzv ölkələrin yekdil qərarı ilə ölkəmizin QH-yə sədrliyinin bir il daha – 2023-cü ilin sonunadək uzadılması sədrliyimizin müvəffəqiyyətlə həyata keçirildiyinin və üzv dövlətlərin Azərbaycana etimadının bariz nümunəsidir.

Sonra BMT Baş Assambleyası 76-cı sessiyasının sədri Abdulla Şahidin sammit iştirakçılarına videomüraciəti təqdim edilib. Abdulla Şahid QH Gənclər Sammitini təşkil etdiyi üçün Azərbaycana minnətdarlıq ifadə edib, xüsusən postpandemiya dövründə gənclərin rolunun vurğulanmasının təqdirəlayiq hal olduğunu bildirib.

Mərasimdə daha sonra Qoşulmama Hərəkatı Gənclər Şəbəkəsinin sədri Orduxan Qəhrəmanzadə çıxış edib, ötən ilin noyabr ayında yaradılmış şəbəkənin gördüyü işlər və gələcək planlardan bəhs edib.

Açılış sessiyasında Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin, Gənclər və İdman Nazirliyinin nümayəndələri, Milli Məclisin deputatları, QH-yə üzv ölkələrin Azərbaycanda akkreditə olunmuş səfirləri və başqa qonaqlar da iştirak ediblər.

Daha sonra tədbirin proqramına uyğun olaraq Qoşulmama Hərəkatına üzv ölkələrin gənclərinin çıxışları dinlənilib.

İyulun 29-dək davam edəcək sammitin müxtəlif seqmentləri çərçivəsində iştirakçılar tədbirin yekun sənədlərini müzakirə edəcək, QH modeli simulyasiya məşğələsi, eləcə də təşkilatların effektiv idarə edilməsi barədə təlim sessiyasında iştirak edəcək, müxtəlif rəsmilərin iştirakı ilə panel müzakirələrə qatılacaq, təqdimatlar keçirəcəklər.

№55 (1928)
27 iyul 2022
www.medeniyyet.az

# Medianın qlobal trendləri Şuşada müzakirə olunub

əvvəli səh. 1-də

Dövlət başçısı əmin olduğunu bildirib ki, Azərbaycan jurnalistikası əldə olunmuş uğurların inkişaf etdirilməsi, cəmiyyətimizin davamlı tərəqqisi və xalqımızın xoşbəxt gələcəyi üçün bundan sonra da öz səylərini əsirgəməyəcək.

Daha sonra çıxış edən Azərbaycan Respublikası Audiovizual Şurasının sədri İsmət Səttarov deyib ki, bu gün informasiyanın yaradılması, ötürülməsi, cəmiyyətə çatdırılması üzrə texnologiyaların sürətlə dəyişdiyi bir dövrdə yaşayırıq. Bu səbəbdən media sahəsi üzrə peşəkarlar arasında daimi qarşılıqlı təcrübə mübadiləsi aparılmalıdır.

Azərbaycan Respublikası Medianın İnkişafı Agentliyinin icraçı direktoru Əhməd İsmayılov çıxışında bildirib ki, 147 illiyini qeyd etdiyimiz Azərbaycan milli mətbuatı böyük və şərəfli inkişaf yolu keçib, bütün dövrlərdə qabaqcıl ictimai ideyaların carçısı olub. Vurğulanıb ki, ötən əsrin 90-cı illərinin ikinci yarısından başlayaraq ulu öndər Heydər Əliyevin siyasi iradəsi nəticəsində müstəqil Azərbaycanda plüralizmi, söz və məlumat azadlığını məhdudlaşdıran süni maneələr aradan qaldırılıb və bunun parlaq nümunəsi 1998-ci ildə senzuranın ləğv edilməsi olub.

"Bu gün Azərbaycanın media ictimaiyyəti növbəti tarixi hadisəyə şahidlik edir. "Mediada qlobal trendlər, yeni çağırışlar" Beynəlxalq Media Forumunun Azərbaycanın mədəniyyət paytaxtı, ölkəmizin tarixi-mədəni, ictimai-siyasi həyatının mühüm mərkəzlərindən biri olan Şuşada keçirilməsindən fəxarət hissi duyuruq", - deyə Əhməd İsmayılov qeyd edib.

Qarabağ Dirçəliş Fondu İdarə Heyətinin sədri Rəhman Hacıyev diqqətə çatdırıb ki, 44 günlük Vətən müharibəsində qazandığımız tarixi Qələbə ilə




bölgəmizdə yeni reallıq yaranıb. R.Hacıyev deyib ki, yaxın günlərdə Qarabağ Dirçəliş Fondunun maliyyə göstəriciləri ictimaiyyətə təqdim olunacaq. Onun sözlərinə görə, Fonda minlərlə həmvətənimiz, bir çox şirkətlər ianələr edib.

Fond artıq bir neçə layihəyə maliyyə dəstəyi ayırmağa başlayıb. Bu layihələrin arasında Şuşa şəhərində üç tarixi abidənin bərpası və yenidən qurulması var. Bunlar Heydər Əliyev Fondu tərəfindən bərpa olunan Üzeyir Hacıbəylinin heykəli, Xalça Muzeyi və Yaradıcılıq Mərkəzidir. Mədəniyyət Nazirliyi ilə birgə Ağdamdakı İmarət kompleksinin bərpası üzrə konsepsiya hazırlanır. Dövlət Turizm Agentliyi ilə Şahbulaq qalasının bərpası və ətrafında turizm infrastrukturunun yaradılması üzrə müəyyən işlər aparılır. Füzulidə Fondun birbaşa icra etdiyi 20 hektar ərazidə müasir "ağıllı" park salınacaq. Zəngilan rayonunda Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə birlikdə 30 min ağac əkilir.

Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi İdarə Heyətinin sədri Məftun Abbasov çıxışında qeyd edib ki, idarə media nümayəndələri ilə sıx əlaqələr qurur. Şuşa şəhərindəki dağıntılar, bərpa və yenidənqurma işləri, keçirilən tədbirlər mediada geniş işıqlandırılır və təbliğ edilir.

ADA Universitetinin Kommunikasiya və Rəqəmsal Media Proqramının direktoru Şəfəq Mehrəliyeva bildirib ki, bu il Milli Mətbuat Gününə yaraşan ən gözəl format 147-ci ildönümünün Şuşada keçirilməsidir. O, ADA Universitetində ötən ildən kommunikasiya və rəqəmsal media ixtisası üzrə tədrisin başlandığını da diqqətə çatdırıb.

Forum işini panel iclasları ilə davam etdirib.

Birinci panel iclası "Yeni media jurnalistikasına keçid: Konvergensiya və yeni imkanlar" mövzusunda olub.

Paneldə çıxış edən TASS İnformasiya Agentliyi baş direktorunun birinci müavini Mixail Qusman bildirib ki, dünyada yaranan yeni reallıqlar ilk olaraq kütləvi informasiya vasitələrinə təsir edib. Hazırda rəqəmsal informasiya vasitələrindən əldə olunan gəlirlər ənənəvi medianı üstələyir. Müasir dövrdə insanların 60 faizi xəbərləri sırf internet vasitəsilə oxuyurlar. Qeyd edib ki, sosial şəbəkələrdə anonimlik və bəzi məsuliyyətsiz davranışlar bəzən ciddi fəsadlara səbəb olur. Azərbaycan da dezinformasiya hücumlarına məruz qalan ölkə kimi bununla mübarizə aparır. Bu müharibədə ən böyük silah isə dəqiq, yoxlanılmış məlumatlardır.

"Əl-Cəzirə" Media İnstitutunun təlimlər üzrə meneceri Muhəmməd Talal Əbdülkərim deyib ki, medianın hamı tərəfindən güvənilən struktur olması üçün üzərimizə düşən vəzifə etibarlı məlumatları çatdırmaqdır.

İkinci panel iclası "Media etikası: Rəqəmsal mühitdə jurnalistlərin peşə davranışı" mövzusuna həsr olunub. İclasda Avropa Xəbər Agentlikləri Alyansının baş katibi Aleksandru Giboi, Anadolu Agentliyi baş direktorunun müavini Yusuf Özhan və başqaları çıxış ediblər.

"Azərbaycan mətbuatında Şuşa izi" adlı üçüncü panel iclasında çıxış edənlər Şuşanın milli ideologiyadakı önəmindən, Şuşa ziyalılarının Azərbaycan cəmiyyətindəki böyük rolundan, Azərbaycan və dünya media nümayəndələrinin Şuşada bir araya gəlməsinin əhəmiyyətindən söz açıblar.

Dördüncü panel "Azərbaycan mediasının beynəlxalq əməkdaşlıq perspektivləri" mövzusuna həsr olunub.

Bununla da forum işini başa vurub. Beynəlxalq Media Forumunun iştirakçıları Azərbaycanın mədəniyyət paytaxtı Şuşanın görməli yerləri ilə tanış olub, qala divarları önündə xatirə fotosu çəkdiriblər.

## Şuşaya azadlıq yaraşır...

Kürdəmir RMİ İmişli rayon Mədəniyyət Mərkəzinin Məzrəli kənd Diyarşünaslıq evində kəndin sakinləri və ziyalıların iştirakı ilə "Şuşa, sən azadsan!" adlı tədbir keçirilib.




Vətən müharibəsi şəhidlərinin xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlanan tədbirdə Şuşaya həsr olunmuş vətənpərvərlik mövzusunda şeirlər və incəsənət ustalarının ifasında musiqilər səsləndirilib.

***

Ağdaş RMİ Ağdaş rayon Heydər Əliyev Mərkəzi və rayon Mədəniyyət Mərkəzinin birgə təşkilatçılığı ilə "Şuşa İli" münasibətilə rəsm sərgisi təşkil olunub. Sərgidə əl işləri nümayiş olunan rəssamlara hədiyyələr təqdim edilib.

# 147 ildir azalmayan maarifçilik ziyası



İyulun 22-də Azərbaycan milli mətbuatının 147 yaşı tamam oldu. Bölgələrdə fəaliyyət göstərən mədəniyyət müəssisələrində Milli Mətbuat Günü – media işçilərinin peşə bayramı münasibətilə müxtəlif tədbirlər keçirilib.

Ağdaş Regional Mədəniyyət İdarəsi (RMİ) Zərdab rayon Mərkəzi Kitabxanası əməkdaşlarının iştirakı ilə Həsən bəy Zərdabinin Xatirə Muzeyində "Zərdabi işığında" adlı tədbir keçirilib.

Rayon MKS-nin direktoru Nailə Əliyeva giriş sözündə H.Zərdabinin yaradıcılıq yolundan söhbət açaraq qeyd edib ki, böyük maarifçi 1875-ci ildə "Əkinçi" qəzetini yaratmaqla beyinlərdə milli oyanış toxumu səpdi. Muzeyin direktoru Vəfa Bayramova tədbir iştirakçılarını Zərdabinin irsini və dövrünün görkəmli simaları ilə münasibətlərini əks etdirən fotostendlə tanış edib. Mərkəzi Kitabxananın əməkdaşları Gülzar Qasımova və Leyla İsgəndərli Zərdabi yaradıcılığının təbliğində kitabxanaçıların rolu, Zərdabinin təbiətşünas alim kimi fəaliyyətindən bəhs ediblər.

***

Sumqayıt RMİ Sumqayıt şəhər MKS-nin S.Vurğun adına Mərkəzi Kitabxanasının Uşaq şöbəsi Milli Mətbuat Günü ilə əlaqədar "Sumqayıt" qəzeti redaksiyasına ekskursiya təşkil edib. "Sumqayıt" redaksiyasında bir gün" adlı tədbirdə şöbənin əməkdaşlarına və oxuculara qəzetin tarixi və fəaliyyəti barədə məlumat verilib.

***

Masallı RMİ Masallı rayon Heydər Əliyev Mərkəzində "Heydər Əliyev və müasir Azərbaycan mətbuatının inkişaf tarixi" mövzusunda tədbir keçirilib. Mərkəzin direktoru Dilbər İbayeva çıxış edərək ulu öndərin və onun siyasətinin layiqli davamçısı Prezident İlham Əliyevin mətbuata olan diqqət və qayğısından söz açıb.

Masallı Tarix-Diyarşünaslıq Muzeyində Milli Mətbuat Günü və Masallı Rayon İcra Hakimiyyətinin təsisçiliyi ilə nəşr edilən "Yeni həyat" qəzetinin 90 illik yubileyinə həsr olunmuş tədbir keçirilib. Tədbirdə qəzetinin fəaliyyətini əks etdirən sərgi nümayiş olunub.

***

Ağcabədi RMİ Ağcabədi rayon Mərkəzi Kitabxanasının əməkdaşlarının iştirakı ilə mətbuatımızın bayramı münasibətilə tədbir keçirilib. Əvvəlcə şəhid media nümayəndələrinin xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Ağcabədi rayon MKS-nin direktor müavini Təranə Məmmədova milli mətbuatımızın yaranma tarixi haqqında danışıb.

Azərbaycanın qocaman mətbuat orqanlarından biri, Ağcabədidə nəşr olunan "Aran" qəzetinin ilk nömrəsinin fəaliyyətə başlamasından 90 il ötür. Bu münasibətlə keçirilən yubiley tədbirində qonaqlar Ağcabədi rayon Mədəniyyət Mərkəzinin foyesində qəzetin ötən dövrdəki fəaliyyətini əks etdirən sərgi ilə tanış olublar. Tədbirdə Ağcabədi Rayon İcra Hakimiyyətinin başçısı Rafil Hüseynov, Milli Məclisin deputatı Tahir Rzayev, Yazıçılar Birliyinin sədr müavini, "525-ci qəzet"in baş redaktoru Rəşad Məcid, yubilyar qəzetin redaktoru Məhsəti Musa, Vətən müharibəsi şəhidi Anar Cəfərovun həyat yoldaşı Samirə Xudiyeva və digərləri çıxış ediblər.










Tədbir Ağcabədi RMİ-nin tabeliyində fəaliyyət göstərən Qarabağ Muğam Mərkəzi, Ağcabədi Uşaq musiqi məktəbi və şəhər Uşaq incəsənət məktəbinin təqdimatında konsert proqramı ilə davam edib.

***

Bərdə RMİ-də Milli Mətbuat Günü münasibətilə bir qrup media nümayəndəsi ilə görüş keçirilib. Tədbirdə hərbi jurnalist Şöhrət Eyvazovun Vətən müharibəsində düşməndən qənimət olaraq götürülmüş "Boş qalan papaqlar" adlı kolleksiyasına baxış olub. Bərdə RMİ-nin rəisi Vəsilə Möhsümova çıxışında Azərbaycan milli mətbuatının yaranmasından, şərəfli və zəngin tarixindən danışaraq mətbuat işçilərinə gələcək fəaliyyətlərində uğurlar arzulayıb. Sonra bir qrup mətbuat nümayəndəsi regional idarənin fəxri fərmanı ilə təltif olunub. Tədbir Bərdə rayon Mədəniyyət Mərkəzinin təşkil etdiyi konsert proqramı ilə davam edib.

***

Ağstafa RMİ Ağstafa rayon MKS-nin Mərkəzi Kitabxanası, rayon Tarix-Diyarşünaslıq Muzeyi və şəhər 1 saylı Folklor klubunun birgə təşkilatçılığı ilə keçirilən tədbirdə Milli Mətbuat Günü ilə əlaqədar kitab sərgisi nümayiş etdirilib.

Qazax Dövlət Rəsm Qalereyasında mətbuatımızın bayramı ilə bağlı keçirilən tədbirdə qalereyanın direktoru Münəvvər Xəlilova çıxış edərək "Əkinçi"dən başlanan mətbuat və maarifçilik yoluna nəzər salıb.

Tovuz rayon Heydər Əliyev Mərkəzi, rayon MKS və Tarix-Diyarşünaslıq Muzeyinin birgə təşkilatçılığı ilə "Azad fikrin təməli – "Əkinçi" adlı dəyirmi masa keçirilib.

***

Biləsuvar RMİ Salyan rayon Heydər Əliyev Mərkəzində media işçilərinin peşə bayramı ilə əlaqədar keçirilən tədbirdə çıxış edənlər milli mətbuatımızın "Əkinçi" ilə başlanan maarifçilik, yeniləşmə, çağdaş mədəni təfəkkür xəttindən bəhs olunub. Bildirilib ki, "Əkinçi"nin xələfləri onun yolunu davam etdirərək xalqımızın milli özünüdərkində, milli oyanış prosesində müstəsna rol oynayıblar. Həmçinin ulu öndər Heydər Əliyevin mətbuatın gücünü çox gözəl anlayan və jurnalistlərlə işin əhəmiyyətini qəbul edən dahi siyasətçi olduğu vurğulanıb.

***

Sabirabad RMİ Hacıqabul rayon Heydər Əliyev Mərkəzində Milli Mətbuat Günü ilə əlaqədar sərgi təşkil edilib. Sərgidə mətbuatımızın inkişaf yolunu əks etdirən materiallar nümayiş olunub.

***

Şəki RMİ M.F.Axundzadə adına Şəki şəhər Mədəniyyət Mərkəzinin tabeliyində fəaliyyət göstərən Ələsgər Abdullayev adına şəhər Diyarşünaslıq evində "Qələmin güclü olsun" mövzusunda mühazirə keçirilib.

***

Gəncə RMİ Samux rayon Heydər Əliyev Mərkəzində Gənclərin İnkişaf və Karyera Mərkəzi Samux rayon nümayəndəliliyinin birgə təşkilatçılığı ilə "Milli Mətbuat Günü" mövzusunda seminar keçirilib.

**Hazırladı: N.Məmmədli**

## Doğma yurda qayıdanlara tibbi xidmət necə göstəriləcək?




İllərin ayrılığından sonra doğma torpağa qayıdanların məskunlaşdırılması ilə bağlı vacib məsələlərdən biri də yerlərdə tibbi xidmətin təşkilidir.

Bununla bağlı Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi (TƏBİB) və Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi arasında əməkdaşlıq haqqında memorandum imzalanıb. Memorandumu TƏBİB-in İdarə Heyətinin sədri vəzifəsini icra edən Vüqar Qurbanov və Dövlət Komitəsi sədrinin müavini Fuad Hüseynov imzalayıblar.

Vüqar Qurbanov bildirib ki, Zəngilandakı Ailə Sağlamlıq Mərkəzi artıq istifadəyə hazır vəziyyətdədir: "Mərkəz tam təchizatlı bir mərkəzdir və orda həkim, orta tibb işçisi elektrokardioqramma müayinəsi, ultra-səs müayinəsi və digər lazımi müayinələr həyata keçiriləcək".

Memorandum üç il müddətinə imzalanıb. TƏBİB tərəfindən memorandum çərçivəsində işğaldan azad olunmuş ərazilərə köçürülən şəxslərin ümumi tibbi müayinəsinin təşkili, həmçinin uşaqların müxtəlif yoluxucu xəstəliklər əleyhinə immunizasiyanın aparılması da həyata keçiriləcək.

## Qismətinə birinci olmaq yazılan 41 ailə

### Ağalı kəndinə köçün ilk mərhələsi başa çatıb

İşğaldan azad edilmiş torpaqlara Böyük Qayıdışın ilk qədəmləri olan Zəngilan rayonunun Ağalı kəndinə köçün birinci mərhələsi başa çatıb. İyulun 25-də daha 11 ailə doğma yurda ayaq basıb. 19-25 iyul tarixi arasında kəndə ümumilikdə 41 ailə (201 sakin) köçüb.

29 ildən sonra Vətənə qayıdan zəngilanlıları Ağalı kəndində Şərqi Zəngəzur İqtisadi rayonuna daxil olan Zəngilan rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Vahid Hacıyev qarşılayıb. Doğma yurdlarına qayıdan zəngilanlılara Ağalı kəndində yaradılan şərait barədə məlumat verilib. Doğma yurda qayıdışın sevincini yaşayan sakinlər Zəngilanın havasını udub, suyundan içiblər.

Birgə nahardan sonra Ağalı sakinlərinə "Azercell"dən hədiyyələr, "Rahat" marketdən 100 manatlıq alış-veriş kuponları, "Azərsun Holdinq" tərəfindən ərzaq bağlaması təqdim edilib.

Sonra ailələrə evlərinin açarları verilib və kənd sakinləri yeni evləri ilə tanış olublar.

Ömrünün çox hissəsini Ağalıda keçirən 87 yaşlı Bənövşə Nuriyeva sevincini AZƏRTAC-ın müxbiri ilə bölüşüb: "Köçkünlükdə çox çətinliklər çəkmişik. Amma ən böyük çətinliyimiz yurd həsrəti olub. Doğma kəndimizi heç vaxt yadımdan çıxarmamışam. Allaha şükürlər olsun ki, bu günü görmək mənə qismət oldu. Kəndimizə övladlarımla, nəvələrimlə qayıdıram. Allah Prezidentimizi, Ordumuzu qorusun. Allah şəhidlərimizə rəhmət eləsin".




Kəndin digər sakini Bəxtiyar Abdullayev isə bildirib: "Ağalı kəndində doğulmuşam, uşaqlığım burada keçib. Kəndimiz işğal olunanda 18 yaşım var idi. Ötən dövrdə Sumqayıt şəhərində məskunlaşmışdıq. Çox sevinirəm ki, 47 yaşım olsa da, bu gün öz torpağımıza, kəndimizə qayıtdım. Bizim üçün burada gözəl şərait yaradılıb. Artıq ikimərtəbəli, beşotaqlı evimiz var. Bundan sonra ailəmlə, övladlarımla öz kəndimizdə yaşayacağıq".

Ata-baba yurdu Ağalıya gəlmək 13 yaşlı Vüsal Abdullazadə üçün ikiqat sevincli idi. Valideynlərindən kənd haqqında çox şey eşitdiyini deyən Vüsal buraya gəlməyi hər zaman arzuladığını bildirib. "Doğum günümdə ata yurduma gəlmək mənim üçün ən böyük sevinc oldu. Sevinirəm ki, burada yaşayacaq, burada da məktəbə gedəcəyəm", - deyə o qeyd edib.

əvvəli səh. 1-də

# Müəlliflik hüquqlarının təmin edilməsində aidiyyəti qurumların rolu

## Beynəlxalq konfransda müzakirə olunub

Türkiyənin Musiqi Əsəri Sahibləri Peşə Birliyinin (MESAM) sədri Recep Ergül təşkilat haqqında məlumat verib, müəllif hüquqlarının qorunması sahəsində qardaş ölkənin təcrübəsindən danışıb.

Əqli Mülkiyyət Agentliyinin Aparat rəhbəri Xudayət Həsənlinin "Şəffaflıq – müəllif və kollektiv idarəetmə təşkilatları arasında qarşılıqlı etimadın əsas şərti kimi" mövzusunda məruzəsi dinlənilib. Agentlik tərəfindən ölkəmizdə fəaliyyət göstərən kollektiv idarəetmə təşkilatlarının gücləndirilməsinə dəstək göstərilməsi, yeni idarəetmə təşkilatlarının yaradılmasının təşviq edilməsi istiqamətində görülən işlərə toxunan məruzəçi əmlak hüquqlarının idarəçiliyində şəffaflıq və hesabatlılıq prinsiplərinə ciddi əməl edilməsinin vacibliyini vurğulayıb.



Sonra Rusiya Müəllif Cəmiyyətinin (Rossiyskoye Avtorskoye Obşestvo - RAO) baş direktorunun beynəlxalq əlaqələr üzrə müavini Qriqori Turinçev, Türkiyənin Musiqi Əsəri Sahibləri Qrupu Peşə Birliyinin (MSG) nümayəndəsi Muharrem Ömer Özgür, Özbəkistanın "Müəlliflik hüququ və əlaqəli hüquqların qorunması cəmiyyəti"nin (UzAvtor) sədr müavini Abdumumin Yoldaşov, eləcə də Azərbaycandan "Rəqəmli və Audiovizual Yayım Sənayesi" İctimai Birliyinin sədri Murad Babayev, "Müəllif Hüquqları uğrunda" İctimai Birliyinin sədri Gövhər Həsənzadə, "Azərbaycan Peşəkar Kinorejissorlar Gildiyası" İctimai Birliyinin sədri Hüseyn Mehdiyev təşkilatların fəaliyyəti və təcrübələri haqqında məlumat veriblər.

Əqli Mülkiyyət Agentliyinin tabeliyində olan Əqli Mülkiyyət Hüquqlarının Təminatı Mərkəzinin direktoru Nəcəf Quliyev fəaliyyət istiqamətləri və agentlikdə akkreditasiyadan keçmiş kollektiv idarəetmə təşkilatları haqqında məlumatı əks etdirən təqdimatla çıxış edib. Vurğulanıb ki, əvvəllər musiqili əsər müəlliflərinin əmlak hüquqlarının kollektiv əsasda idarə edilməsi funksiyasını öz üzərinə götürmüş "Azərbaycan Müəllifləri" İctimai Birliyi öz fəaliyyətini mövcud qanunvericiliyin tələblərinə uyğun qurmayıb, açıqlıq və şəffaflığa əməl etməyib və təmsil etdiyi müəlliflər və digər hüquq sahibləri arasında nüfuzunu itirib. Dəfələrlə ictimai birliyin mövcud qanunvericilik aktlarına uyğun olaraq, akkreditasiyadan keçməsi tələb edilsə də, akkreditasiya üçün tələb olunan sənədlər agentliyə təqdim edilməyib.

Konfransda Qırğız Respublikası Nazirlər Kabineti yanında Əqli Mülkiyyət və İnnovasiya Dövlət Agentliyi, Qazaxıstanın "Amanat" müəlliflik hüququ və əlaqəli hüquqları qorunması üzrə qeyri-kommersiya təşkilatının təmsilçiləri, ölkəmizin sənət adamları – bəstəkarlar, yazarlar, fonoqram istehsalçıları da iştirak ediblər.

Tədbirin sonunda konfransda iştirak edən xarici və yerli kollektiv idarəetmə təşkilatlarının əməkdaşlığın genişləndirilməsi barədə birgə bəyanatı imzalanıb.

# Mədəniyyət Nazirliyində Xalq artisti Bəxtiyar Xanızadə ilə görüş

Mədəniyyət nazirinin birinci müavini Elnur Əliyev bu günlərdə 65 yaşını qeyd edən Xalq artisti, Azərbaycan Dövlət Pantomima Teatrının baş rejissoru Bəxtiyar Xanızadə ilə görüşüb.



Elnur Əliyev sənətkara mədəniyyət naziri Anar Kərimovun təbrik məktubunu təqdim edib, ona uzun ömür və yeni yaradıcılıq uğurları arzulayıb. Bildirib ki, Mədəniyyət Nazirliyi Azərbaycan Dövlət Pantomima Teatrının fəaliyyətini yüksək qiymətləndirir və daim diqqət mərkəzində saxlayır. Elnur Əliyev onu da vurğulayıb ki, Azərbaycan teatr şəbəkəsində məxsusi yeri olan Pantomima Teatrının gələcəkdə fəaliyyətini uğurla davam etdirməsi üçün nazirlik dəstək verməyə hazırdır.

Bəxtiyar Oqtay oğlu Xanızadə 13 iyul 1957-ci ildə Bakının Şağan kəndində doğulub. Azərbaycanda Pantomima Teatrının (1994) yaradıcısı, bir sıra səhnə əsərlərinin, aktyorluq sənətinin plastikasına dair elmi əsərlərin müəllifidir. Kinoda ("Qərib cinlər diyarında", "Ovsunçu", "Cavid ömrü" və s.) yaddaqalan obrazlar yaradıb.

# Sevgi dolu yaradıcılıq

## Kinorejissor Yalçın Əfəndiyevin xatirə gecəsi keçirildi

İyulun 24-də görkəmli kinorejissor, Xalq artisti Yalçın Əfəndiyevin (1937-2019) anadan olmasının 85-ci ildönümü tamam oldu.

Bu münasibətlə iyulun 22-də Azərbaycan Dövlət Film Fondunda sənətkarın yubileyi münasibətilə xatirə gecəsi keçirildi. Tədbirdə mədəniyyət və incəsənət xadimləri, sənətkarın ailə üzvləri iştirak edirdi.

Tədbir iştirakçıları əvvəlcə Yalçın Əfəndiyevin həyat və yaradıcılığını əks etdirən fotosərgi ilə tanış oldular.





Giriş sözü ilə çıxış edən Dövlət Film Fondunun direktoru, Əməkdar incəsənət xadimi Cəmil Quliyev öncə məşhur polyak astronomu Nikolay Kopernikin "Hər bir insan doğulanda yolunu onunla bərabər doğulan ulduz aparır" fikirlərini dilə gətirdi: "Mən bu fikirlə razıyam. Sanki Yalçın müəllimi günəş idarə edirdi. O, ətrafındakılara enerji verirdi, məftunedici bir insan idi. Onun həyat və yaradıcılıq yolu daima sevgi, məhəbbətlə zəngin idi. Bu sevgi və məhəbbət təkcə ailəsinə deyil, dostlarına, tələbələrinə də şamil olunurdu. Yalçın Əfəndiyev ömrünün son günlərinə qədər mütaliə etməyi sevirdi. Təəssüf ki, onun yazdığı bir neçə kitab işıq üzü görmədi. Mən arzu edirəm ki, bu kitablar nəşr olunsun".

Cəmil Quliyev Yalçın Əfəndiyevin filmlərinin müxtəlif janrları əhatə etdiyini dedi: "Mən onun unikal ekran əsərlərindən olan "Bakı haqqında 10 dəqiqə" sənədli filmi haqqında danışmaq istəyirəm. Film müşahidə formasında çəkilib. Rejissor filmdə Bakı şəhərinin bir gününü müşahidə edir. Filmdə Bakı mühiti o qədər gözəl təsvir olunmuşdu ki, bir çox rejissorlar bu gün də öz filmlərində sözügedən ekran əsərindən, xronikal materiallarından istifadə edirlər".

Direktor Yalçın Əfəndiyevin 85 illik yubileyi ilə əlaqədar onun "Bakı haqqında 10 dəqiqə" və "Yusuf Məmmədəliyev" sənədli filmlərini bərpa etdiklərini diqqətə çatdırdı.

Xalq yazıçısı Natiq Rəsulzadə Yalçın Əfəndiyevlə uzun illər yaxın dost və qonşu olduğunu vurğuladı: "Mən Yalçından çox şeylər öyrənmişəm. Biz iki dəfə müxtəlif layihə üzrə işləmişik. Lakin təəssüflər olsun ki, bu layihələr həyata keçmədi. O, mənə deyirdi ki, eybi yox, ruhdan düşmə, biz hər halda cəhd göstərdik.

Əməkdar incəsənət xadimi, kinooperator Kənan Məmmədov söylədi ki, çəkdiyi ilk sənədli filmin rejissoru Yalçın Əfəndiyev olub: "Bəstəkarı Vaqif Mustafazadə olan filmin adı "Ceyran" adlanırdı. Zirə adasının lap ucunda bir ceyran qoruğu var idi. Filmdə əsas çəkiliş yerimiz məhz ora idi. Biz Yalçınla həftələrlə burada çəkiliş apardıq".

Xalq artisti, kinorejissor Oqtay Mirqasımov bildirdi ki, bəzi insanlar rejissor sənətini peşə, texnika, bilik və təcrübə ilə bağlayırlar: "Mənim fikrimcə, rejissorluq heç də texniki bir məsələ deyil. Rejissor tərbiyə verən, cəmiyyəti qoruyan sənətkardır. Yalçın Əfəndiyev buna əsl bir örnəkdir. Mən çox istəyərdim ki, Yalçın Əfəndiyev haqqında kitab yazılsın".

Əməkdar jurnalist Nadejda İsmayılova və Əməkdar artist, kinorejissor Elxan Qasımov Yalçın Əfəndiyevin yaradıcılığından söz açdılar, onunla bağlı xatirələrini bölüşdülər.

Çıxışlardan sonra rejissorun "Yusuf Məmmədəliyev" sənədli filmi nümayiş etdirildi. Filmdə dünya şöhrətli kimyaçı alim, akademik Yusuf Məmmədəliyevin (1905-1961) mənalı həyat yolu ekranda canlandırılır. Kinolentdə əsas diqqət Y.Məmmədəliyevin respublikamızda elmin inkişafındakı roluna, yüksəkixtisaslı kadrların hazırlanmasında xidmətlərinə yönəlib. Film 1987-ci ildə C.Cabbarlı adına "Azərbaycanfilm" Kinostudiyasında istehsal olunub. Ekran əsərinin rejissoru Yalçın Əfəndiyev, ssenari müəllifləri Rəhman Bədəlov və Yalçın Əfəndiyev, operatoru Köçəri Məmmədov, səs operatoru isə Şamil Kərimovdur.

Filmin nümayişindən sonra Yalçın Əfəndiyevin əzizi Ceyhun Topçubaşov çıxış edərək sənətkarın xatirəsinə göstərilən diqqətə görə tədbir iştirakçılarına təşəkkürünü bildirdi.

Qeyd edək ki, Yalçın Əfəndiyev 1960-cı ildə Bakı Dövlət Universitetinin Geologiya-coğrafiya fakültəsini, 1966-cı ildə Ümumittifaq Dövlət Kinematoqrafiya İnstitutunun (indiki Ümumrusiya Dövlət Kinematoqrafiya İnstitutu) Rejissorluq fakültəsini bitirib. 1966-cı ildən "Azərbaycanfilm" Kinostudiyasında çalışıb. Kinostudiyada sənədli filmlər birliyinin direktoru, 1991-1994-cü illərdə "Azərbaycantelefilm" Yaradıcılıq Birliyinin bədii rəhbəri işləyib. Onun 1969-cu ildə çəkdiyi "Cırtdan" cizgi-applikasiya filmi ilə Azərbaycan kinosunda bu sahənin inkişafında yeni mərhələnin əsası qoyulub. Azərbaycan kinematoqrafiyasında xüsusi yeri olan Yalçın Əfəndiyev uzun illər Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində dərs deyib. 2019-cu il dekabrın 10-da vəfat edib.

**Nurəddin Məmmədli**

# "Həyata keçirmək istədiyim layihələrdə böyük dəstəyə ehtiyac var"

## Mahirə Quliyeva: "Erməni musiqiçinin atamdan oğurladığı kitabın illər sonra həqiqi müəllifin imzası ilə çapına nail oldum"

Mahirə Quliyevanın adı qəzetimizin oxucularına tanışdır. İllər əvvəl bu xanımla vətəninin əsrarəngiz təbiətini quramə, rəsm, karvinq (tərəvəz və meyvə üzərində bədii kəsmə sənəti) və s. bədii sənət sahələrində canlandıran təcrübəli insan kimi tanış olmuşduq. Daha sonra isə onu istedadlı musiqiçi və pedaqoq kimi tanıdıq. Sənətin bir neçə sahəsində özünü sınayan Mahirə Quliyeva ixtisasca musiqiçidir. Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının fortepiano və orqan sinfində təhsil alıb. Bir müddət Sumqayıt Musiqi Kollecində və Milli Konservatoriyada baş müəllim kimi çalışıb. Hazırda Türkiyənin Ərdahan Universitetində dərs deyir.

Yay tətili ilə bağlı Bakıda olan sənətkarla görüşüb musiqi dünyasına, sənət aləminə birgə səyahət etdik.

*– Türkiyədə əsas fəaliyyətiniz nədən ibarətdir?*

– Türkiyədən təklif alanda əsas məqsədim Azərbaycan musiqisini qardaş ölkədə təbliğ etmək idi. Bu mənim qanımdan keçən duyğulardır və harada olsam, çalışıram ki, milli musiqimizi, bəstəkarlıq məktəbimizi tanıdım. İfaçı, müşayiətçi olduğum üçün bu işi həm nəzəri, həm də praktik olaraq çatdırmağa çalışıram. Türkiyədə hazırda sənətlə məşğul olan insanlar bizim musiqini öyrənməyə çalışırlar.

*– Qardaş ölkədə Azərbaycanla müqayisədə sənət, musiqi təhsilinə maraq hansı səviyyədədir?*

– Mən ölkəmizdə uzun illər pedaqoji fəaliyyətlə məşğul olmuşam. Azərbaycanda musiqi təhsili musiqi məktəblərindən başlayaraq davam edir. Bu sahə bizdə daha çox inkişaf edib. Türkiyədə isə musiqi məktəbləri daha çox böyük şəhərlərdə fəaliyyət göstərir. Hazırda Türkiyədə musiqi təhsili alan gənclər 16 yaşından sonra musiqi ilə məşğul olmağa başlayırlar. Şəhərlərdə çoxlu musiqi kursları var ki, uşaqlar bu kurslarda hobbi kimi musiqini öyrənirlər. Bizdəki kimi solfecio, xor, alət üzrə təhsillər yoxdur. Amma gənclər universitetə daxil olduqdan sonra musiqini mükəmməl öyrənirlər. Hazırda dərs dediyim universitetdə tələbələrin türk və Azərbaycan musiqisinə böyük maraqları var və dərindən öyrənməyə çalışırlar. Azərbaycan musiqisini, tarixini onlara öyrətməyə çalışıram və bu mənim üçün çox önəmlidir.

*– İki ölkə arasında təhsil və mədəniyyət layihələrinin reallaşması üçün planlarınız varmı?*

– Dərs dediyim şəhərdə düşündüm ki, azyaşlı uşaqları cəlb edib onları təməl olaraq dünya musiqisi, not və xor dərsləri ilə tanış edim. Solfecio dərslərində xor dərsləri də keçim və onları 2-3 səsli əsərlərlə tanış etməyə çalışıram. Hətta elə olur dərs zamanı 5 səsli əsər də yazıb onlar üçün ifa edirəm ki, oxusunlar. Onlar çox böyük həvəslə qatılırlar. Bizdə olan musiqi təhsili təməli, əfsus ki, Türkiyənin bir çox bölgələrində yoxdur və uşaqlar bu təhsilə böyük həvəslə qatılırlar. Hazırda Türkiyədə təməl dərslərin keçirilməsinin reallaşdırılması yolunda fəaliyyətlər gedir və bu məni çox sevindirir. Azərbaycanda bu sahədə müsbət nə varsa, türk qardaşlarımızın da bundan yararlanmasını arzu edirəm. Eyni zamanda türk musiqisi və mədəniyyətini Azərbaycanda təbliğ etmək arzusundayam. Türk xalq rəqsləri var ki, bizim gənclərin bu sahə ilə tanış olması üçün çalışıram. İki ölkə arasında mədəni yaxınlaşmada, az da olsa, nə isə edə bilirəmsə, bu, mənim üçün fəxrdir. Mən Türkiyəni Azərbaycandan, Azərbaycanı Türkiyədən ayırmıram. Həyata keçirmək istədiyim çoxsaylı layihələrdə böyük dəstəyə ehtiyac var.



*– Ərdahan Universitetinə gedən yolunuz da maraqlıdır...*

– 2020-ci ildə universitetdən dəvət aldım və düşündüm ki, əgər gedəcəyəmsə, iş və müəllimlik xətrinə deyil, iki ölkə arasında mədəni əlaqələrin inkişafına töhfə olaraq bu təklifi qəbul etməliyəm. Məqsədimə çatmaq üçün bu gün əlimdən gələni edirəm. Musiqi sahəsində fəaliyyət göstərən insanlar arasında əlaqələri genişləndirməyə çalışıram.

*– Atanız Ələkbər Əsgərov nəfəs çalğı alətlərinin novator və virtuoz ifaçısı olub. Fəaliyyətinizin bir istiqaməti də atanızın irsini təbliğ etmək, Azərbaycanda bu ifaçılıq tarixini gənc nəslə çatdırmaqdır. Ötən il "Ələkbər Əsgərovun balaban aləti üçün köçürmələri və işləmələri" kitabını da ictimaiyyətə təqdim etdiniz.*

– 1966-cı ildə atam Sumqayıt Musiqi Texnikumunda balaban sinfi açır, eyni zamanda balaban, tütək, zurna və ney haqqında ikicildlik kitab hazırlayır. Fotoşəkillərlə onların quruluşu və diapazonu, texniki imkanları və aplikatura haqqında məlumat verir. Kitabın ikinci hissəsinə isə işlədiyi əsərləri daxil edir. Həmin əsərlər alətlərə uyğun işlənib hazırlanmışdı. Ən çox da balabana aid olan nümunələr var idi. Balabanın diapazonu hansı imkanlara malik idisə, ona uyğun olaraq Üzeyir Hacıbəyli, Səid Rüstəmov, Fikrət Əmirov, Süleyman Ələsgərov, Ağabacı Rzayevanın, eləcə də rus bəstəkarlarının əsərlərini işləyib daxil etmişdi. Atam Rəşid Behbudovun ansamblı ilə dünyanı gəzdiyi üçün xarici ölkə bəstəkarlarının, klassiklərin də əsərlərini balaban üçün işləmişdi. 1970-ci ildə atam bu kitabın hazır variantını metodiki kabinetə təqdim edir, amma əlyazma naməlum şəkildə yoxa çıxır. 1976-cı ildə kitabın birinci, 1977-ci ildə isə ikinci hissəsi atamın həmkarı, Bakıda çalışan erməni balaban ifaçısı Enok Köçərov tərəfindən xəlvətcə nəşr edilir. Atam bu haqda xəbər tutanda infarkt keçirir, daha sonra isə insult olur.

Mən uzun illər çalışıb bu kitabı yenidən Azərbaycanda nəşr etdirmək istədim. Mənə deyildi ki, bu kitab artıq nəşr olunub. İllər keçdikcə barışa bilmirdim ki, atamın zəhməti olan bu kitab başqa imza ilə tanınır. Milli Konservatoriyada elmi iş üzərində çalışarkən bu kitabı tapdım, atamın əlyazmaları ilə tutuşdurdum və 95 faizinin atamın əlyazması ilə üst-üstə düşdüyünü gördüm. Atamın arxivindəki əlyazmasının bir səhifəsi həmin erməni müəllifin əlinə düşmədiyi üçün texniki çalışmalar kitaba düşməyib. Bütün bunları aşkar etdikdən sonra AMEA-ya müraciət etdim. Kitabın atamın zəhmətinin bəhrəsi olduğunu sübut etmək üçün bütün əlyazmaları təhvil verdim. Sağ olsun, Əməkdar incəsənət xadimi, sənətşünaslıq üzrə fəlsəfə doktoru Sənubər Bağırova bütün sənədləri aldı və E.Köçərovun yazdığı kitabla atamın əlyazmaları üzərində yoxlamalar aparıldı, müqayisə edildi. 2021-ci ildə atamın müəllifliyi ilə kitab nəşr edildi. Qeyd edim ki, rus dilində "Erməni saxtakarlığının "şah əsəri" adlı balabana həsr edilmiş və sosial şəbəkələrdə yayımlanan filmdə bu kitabın da oğurluq olduğu haqqında geniş məlumat verilib.

*– Bildiyim qədər, beynəlxalq müsabiqə və festivallarda münsif olaraq iştirak edirsiniz...*

– Bəli, 10 ildən artıqdır ki, dünyanın bir sıra ölkələrində təşkil olunan musiqi festival və müsabiqələrinin münsif heyətində yer alıram. Musiqimizi, gənclərimizi bu festival və müsabiqələrə cəlb edirəm. Pandemiya zamanı, xüsusilə Vətən müharibəsi vaxtı gənclərimizi onlayn müsabiqələrə cəlb edirdim ki, həm mənəvi güc alsınlar, həm də musiqimizi təbliğ etsinlər. Bu istiqamətdə işim təkcə Türkiyə və Azərbaycanı əhatə etmir. Digər türk respublikalarının gənclərini də diqqətdən kənarda qoymuram.

*– Mahirə xanım, yorulmaz fəaliyyətinizdə sizə uğurlar arzulayıram.*

– Mən də "Mədəniyyət" qəzetinə diqqətə görə təşəkkür edirəm.

**Lalə Azəri**

# “Şuşanın abidələri”

IV yazı



Mədəniyyət paytaxtımız Şuşa şəhəri təkcə musiqi, söz-sənət beşiyi kimi deyil, həm də tarixi abidələri ilə məşhurdur. “Şuşanın abidələri” rubrikasında mədəniyyət paytaxtımızın tarixi-mədəni tikililəri haqqında söz açmağa davam edirik.

### Şuşa Real məktəbi

XIX əsrdə Azərbaycanda yeni tipli məktəblər meydana gəlməyə başladı. Məktəblərin təsiri və maarifin inkişafına cəhd baxımından Azərbaycanın Qarabağ bölgəsi bir qədər irəlidə gedirdi. Bu ənənə XIX əsrin sonlarında daha da güclənmişdi.

Mənbələrdə qeyd olunur ki, XIX əsrin 80-ci illərində Azərbaycan üzrə Bakıda bir real məktəb (almanca “realschule” – XVIII əsrdən Almaniyada və digər Avropa ölkələrində, XIX əsrdən çar Rusiyasında təsis edilən orta və natamam orta təhsil müəssisələri – red.) vardı. Gəncədə isə klassik progimnaziya (oğlan və ya qızlar üçün natamam orta məktəb) fəaliyyət göstərirdi. Bu, şübhəsiz, sənaye və ticarətin inkişaf etdiyi bir mühitdə ehtiyacları qarşılamağa yetmirdi.

Bu tələb və ehtiyac Şuşada özünü xüsusilə büruzə verirdi. Şuşada progimnaziya təsisi ilə bağlı tələbin nəticəsiz qalmasını görən şəhər əhalisi 1880-ci ildə Peterburqa – Qafqaz komitəsinə müraciət edir. Müraciətdə deyilirdi: “Şuşa şəhər sakinlərinin təhsilə olan cidd-cəhdinə (şəhər məktəbində 400-dən artıq şagirdin oxuması bu cəhdi bir daha təsdiq edir) və şəhər ictimaiyyətinin arzusuna əsaslanan Gəncə qubernatoru Şuşa şəhərində 6 sinifli real məktəb açmağı xahiş edir. Şəhər ictimaiyyəti həmin məktəbi müvafiq bina ilə təmin etməyi və ildə 7500 manat pul ilə kömək etməyi öhdəsinə götürür”.

Beləliklə, 1881-ci il sentyabrın 20-də Şuşada ilk orta məktəbin – 6 sinifli real məktəbin əsası qoyulur. Hazırlıq və üç əsas sinifdən ibarət məktəbə ilk dəfə 159 şagird qəbul edilmişdi. Şuşa real məktəbi dövrünün nümunəvi maarif ocağı sayılırdı.

Məktəbdə tanınmış maarifçilərdən Haşım bəy Vəzirov, Mirzə Salah bəy Zöhrabbəyov, Yusif bəy Məlikhaqnəzərov dərs deyib. Vaxtilə bu məktəbdə təhsil almış Əbdüləli bəy Muxtarov, Həsən bəy Bağırbəyov, İsmayıl bəy Şəfibəyov, Muxtar bəy Muradov, Yusif Vəzir Çəmənzəminli, Əbdürrəhim bəy Haqverdiyev, Qara bəy Əliverdilər, Cabbar bəy Vəlibəyov, Rüstəm bəy Axundov, Xan Şuşinski sonradan ölkəmizdə ədəbiyyatın, maarif və mədəniyyətin inkişafına töhfə veriblər...





1992-ci ilin may ayında Şuşa işğal edildikdən sonra erməni vandalları real məktəbin binasını da yandıraraq xarabazara çevirmişdiər.

2020-ci il noyabrın 8-də Şuşa şəhərinin işğaldan azad edilməsindən sonra, digər tarixi tikililər kimi, Şuşa real məktəbinin binasının da bərpa və yenidən qurulması işlərinə başlanılıb. 2022-ci mayın 20-də Prezident İlham Əliyev bununla bağlı sərəncam imzalayıb, məktəbin binasının layihələndirilməsi və bərpası məqsədilə Təhsil Nazirliyinə vəsait ayrılıb.

### Şor bulaq

Şuşanın memarlıq abidələri içərisində onun bulaqları xüsusi yer tutur. Şəhərdə hər məhəllənin öz bulağı, öz məscidi, öz hamamı olub. Araşdırmalarda qeyd olunur ki, bulaqlar artıq formalaşmış şəhər meydanlarında tikilirdi və bəzi hallarda onlar, ümumiyyətlə, məhəllə meydanları ansambllarının tərkibinə daxil edilmirdilər. Ən izdihamlı küçələrdə və yol ayrıclarında salınan bulaqlar onlara müəyyən şəhərsalma ifadəliliyi verirdi.

Şuşa bulaqlarının əksəriyyəti yığcam, ölçüləri kiçik, adətən kubik formada, plastik dizaynlı fasad arxitekturasına malikdir. Şuşa bulaqları eyni üslubda hazırlanmış kiçik formalı memarlıq kimi şəhərin küçə və meydanlarının ansambllarını əhəmiyyətli dərəcədə tamamlayır və bəzəyir, ümumşəhər ansamblının üslub vəhdətinə gözəllik verirdi.

Şuşadakı məşhur bulaqlardan olan Şor bulaq 1854-cü ildə şəhərin varlı sakinlərindən Rəsibala Zəkəriyyə tərəfindən çəkilib. Şəhərin Axundov küçəsində yerləşən bulağın suyu bir qədər şor olduğundan əhali arasında ona belə ad verilib.

Yerli əhəmiyyətli abidələr sırasında olan Şor bulaq Şuşanın ermənilər tərəfindən işğalına qədər fəaliyyət göstərib. Şəhər azad edildikdən sonra bulağın dağıdıldığı məlum olub.

### Sadıqcanın evi

Sadıqcan (Mirzə Əsəd oğlu Sadıq) Azərbaycan tar ifaçılığı sənətində xüsusi yeri olan sənətkarlardan biridir. Onun evi Şuşa şəhərinin Merdinli məhəlləsində yerləşir.

1846-cı ildə Şuşada anadan olan Sadıqcan tarı təkmilləşdirərək ona cingənə və kök simləri əlavə edib, simlərin sayını 5-dən 11-ə çatdırıb. Sadıqcan ilk dəfə tarı sinədə ifa etməyə başlayıb. Məhz onun təkmilləşdirdiyi Azərbaycan tarı Qafqazda və Orta Asiyada geniş yayılaraq milli musiqimizin rəmzinə çevrilib. Sadıqcan həm də istedadlı bəstəkar olub. O, “Orta segah” və “Bayatı-Şiraz” muğamlarına bir neçə rəng bəstələyib. Dövründə “Qafqazın birinci tarzəni” hesab olunan sənətkar 1902-ci ildə Şuşada vəfat edib.

Musiqiçinin doğulduğu birmərtəbəli ev iki otaqdan ibarət idi. Daha sonra sənətkar kimi şöhrəti və qazancı artıqdan sonra Şuşanın ən yaxşı küçələrindən birində üçmərtəbəli bir ev tikdirir və özü də bir neçə gün tikinti işlərində iştirak edib.

Sadıqcanın evi işğal zamanı ermənilər tərəfindən dağıdılıb, hazırda tikilinin xarabalıqları qalıb. İşğaldan öncə evin divarında Mədəniyyət Nazirliyi tərəfindən qoyulmuş xatirə lövhəsi olub.

Hazırda Sadıqcanın evində bərpa və yenidənqurma işləri aparılır. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşaya növbəti səfəri zamanı bu evin bərpası işləri ilə tanış olublar. Musiqiçinin evi ilkin görkəmini 80 faizə qədər itirib. Binanın qalan hissələrində isə konstruktiv çatlar müşahidə olunur və qəzalı vəziyyətindədir. Sadıqcanın evində bərpa işləri Heydər Əliyev Fondu tərəfindən həyata keçiriləcək.

Qeyd edək ki, Sadıqcanın evi ölkə əhəmiyyətli memarlıq abidəsi kimi dövlət qeydiyyatına alınıb.

**Hazırladı: N.Məmmədli**

# Özbəkistanda beynəlxalq konqresdə ölkəmiz də təmsil olunub

AMEA-nın M.Füzuli adına Əlyazmalar İnstitutunun baş direktoru, akademik Teymur Kərimli və elmi katib, dosent Əzizağa Nəcəfov Səmərqənd şəhərində keçirilən “Özbəkistanın mədəni sərvəti yeni intibahın təməli kimi” mövzusunda VI beynəlxalq konqresdə iştirak ediblər.

Akademik Teymur Kərimli Özbəkistan, Qazaxıstan, Qırğızıstan, Tacikistan, Türkmənistan, Pakistan və Monqolustanın muzey mərkəzləri, milli kitabxana və əlyazma institutlarının rəhbərlərinin qatıldığı “Xalqları birləşdirən miras: Mərkəzi Asiya və Azərbaycan” mövzusunda təşkil olunan dəyirmi masada çıxış edib. O, M.Füzuli adına Əlyazmalar İnstitutunda mühafizə olunan və UNESCO-nun “Dünyanın Yaddaşı” siyahısına salınan Əbu Əli ibn Sinanın məşhur “Əl-qanun fit-tibb” əsərinin II cildinin 1143-cü ildə köçürülmüş Bakı nüsxəsi, Əmir Əlişir Nəvai əsərlərinin ən qədim və nadir əlyazma nümunələri, dünyada yeganə nüsxəsi yalnız qeyd olunan institutda qorunan “Qədərxan lüğəti” barədə məlumat verib, institut tərəfindən çapa hazırlanan və özbək xalqının əlyazma irsini özündə ehtiva edən nəfis nəşrləri tədbir iştirakçılarına təqdim edib, ölkələrimiz arasında əlyazmaşünaslıq sahəsində əməkdaşlığın perspektivləri haqqında fikirlərini bölüşüb.

İnstitutun elmi katibi, dosent Əzizağa Nəcəfov “Özbəkistanın mədəni irsi dünya saxlanclarında” layihəsinin nəşr işlər sahəsində əsas perspektivləri” adlı paneldə məruzə edib. “Özbək xalqının əlyazma irsi AMEA-nın M.Füzuli adına Əlyazmalar İnstitutunda” mövzusunda məruzə edən Ə.Nəcəfov IX-XIX əsrlərdə yaşamış, özbək, ərəb və fars dillərində qələmə alınan, tibb, astronomiya, coğrafiya, məntiq, riyaziyyat, poetika, leksikoqrafiya, dinşünaslıq, poeziya və bədii nəsr sahələrinə aid özbək müəlliflərinin əsərlərinin ümumilikdə 216 əlyazma nüsxəsini əhatə edən kataloq haqqında məlumat verib. İbn Sina, Əlişir Nəvai, Abülqasim Bəlxi, Hüseyn Vaiz Kaşifi, Zəhirəddin Babur, Əbu Abdullah Məhəmməd Buxari və başqalarının əlyazma nüsxələri haqqında məlumatlar maraqla qarşılanıb.

Konqresdə AMEA Milli Azərbaycan Tarixi Muzeyinin əməkdaşı, tarix üzrə fəlsəfə doktoru Məhfuzə Zeynalova da iştirak edib. O, “Milli Azərbaycan Tarixi Muzeyinin özbək kolleksiyası” mövzusunda məruzəsi təqdim edib. Məruzəçi muzeyin fondlarında qorunan, Özbəkistan maddi mədəniyyət nümunələrini əks etdirən eksponatlardan danışıb.

# “Şuşa mədəniyyətinin inciləri”ndə Vasif Adıgözəlovun musiqi irsi

Mədəniyyət Nazirliyinin “Şuşa mədəniyyətinin inciləri” layihəsi müxtəlif bölmələr üzrə təqdimatlarla davam edir.

Layihənin “Şuşanın simaları” bölməsinin növbəti təqdimatı görkəmli bəstəkar, Xalq artisti, professor Vasif Adıgözəlova (1935-2006) həsr olunub.

Musiqi mədəniyyətimizə möhtəşəm töhfələr verən Vasif Adıgözəlov bu gün də incəsənət xadimləri tərəfindən böyük minnətdarlıqla xatırlanır, əsərləri repertuarlardan düşmür.

Vasif Zülfüqar oğlu Adıgözəlov 28 iyul 1935-ci ildə Bakıda doğulub boya-başa çatsa da, ata yurdu Qarabağı heç vaxt unutmayıb. İlk musiqi təhsilini Azərbaycan Dövlət Konservatoriyasının (indiki BMU) nəzdindəki musiqi məktəbində (fortepiano sinfi) alıb. 1953-cü ildə konservatoriyaya daxil olub. Bəstəkarlıq üzrə Qara Qarayevin, fortepiano üzrə Simuzər Quliyevanın sinfində təhsilini davam etdirib. 1959-cu ildə iki ixtisas üzrə ali təhsili başa vurub. 1958-ci ildən əmək fəaliyyətinə başlayan sənətkar müxtəlif mədəniyyət ocaqlarında məsul vəzifələrdə çalışıb, o cümlədən Bəstəkarlar İttifaqının sədri (2000-2006) olub.

Bəstəkar iki operanın (“Ölülər”, “Natəvan”), altı musiqili komediyanın (“Nənəmin şahlıq quşu”, bəstəkar Ramiz Mustafayevlə birgə yazdığı “Hacı Qara”, “Boşanaq – evlənərik”, “Aldın payını, çağır dayını” və s.) “Odlar yurdu”, “Qarabağ şikəstəsi”, “Çanaqqala-1915”, “Qəm karvanı” oratoriyalarının, üç simfoniyanın, “Segah” muğam-simfoniyasının, “Mərhələlər”, “Afrika mübarizə edir” simfonik poemalarının, beş instrumental konsertin, çoxlu sayda kamera-instrumental əsərlərin, yüzə qədər mahnı və romansın, dram tamaşalarına və filmlərə yazılmış musiqinin müəllifidir.




Bəstəkarın yaradıcılığında monumental vokal-simfonik əsərlər də üstünlük təşkil edir. “Odlar yurdu”, “Qarabağ şikəstəsi”, “Çanaqqala-1915” oratoriyaları xalqın tarixini, onun azadlıq və müstəqillik uğrunda mübarizəsini və qələbəsini tərənnüm edən yüksək vətənpərvərlik ruhunda yazılmış sənət əsərləridir. “Çanaqqala-1915” qəhrəmanlıq mövzusuna ilk dəfə Azərbaycan bəstəkarı Vasif Adıgözəlov müraciət edib və bu monumental əsər Türkiyədə əlamətdar bir hadisə kimi yüksək qiymətləndirilib.

İri monumental əsərlərlə yanaşı bəstəkarın mahnıları da öz səmimi, ecazkar melodiyası ilə xalqımızın ürəyinə yol tapıb. “Qərənfil”, “Bakı”, “Xoşum gəlir”, “Naz-naz”, “Şuşa laylası”, “Ana” kimi mahnıları insanın ülvi hisslərinin yüksək bədii təzahürüdür.

1992-ci ildə Şuşanın, daha sonra Qarabağda digər yurd yerlərimizin işğal edilməsi Vasif Adıgözəlovu son dərəcə sarsıtmışdı. Ömrünün sonlarında bəstələdiyi əsərlərdə kədər notları daha çox sezilirdi. “Qarabağ şikəstəsi” oratoriyası, “Qəm karvanı”, “Şuşam laylay” əsərləri, üzərində on bir il işlədiyi “Natəvan” operası Qarabağ həsrətindən yaranmışdı.

Görkəmli bəstəkar 2006-cı il sentyabrın 16-da dünyasını dəyişib və Fəxri xiyabanda dəfn olunub.

2020-ci ilin Vətən müharibəsində işğal altındakı torpaqlarımız, o cümlədən Şuşa şəhəri rəşadətli Ordumuz tərəfindən azad edildi. 2021-ci ildə mədəniyyət paytaxtımız Şuşada bərpa olunan “Xarıbülbül” musiqi festivalında Vasif Adıgözəlovun “Qarabağ oratoriyası”na görkəmli bəstəkarın oğlu Yalçın Adıgözəlov dirijorluq edirdi.

Şuşadan, Qarabağdan ayrılmağı sonsuz kədərlə qarşılayan bəstəkar, təbii ki, bu itkinin müvəqqəti olmasına inanırdı və bu inamın, bu təntənəli qayıdışın akkordları elə ilk notlardan hiss olunurdu. Bu unudulmaz günədək yaşamaq bəstəkara nəsib olmasa da, otuz ildən sonra onun möhtəşəm Zəfər müjdəli notlarının Cıdır düzündə səslənməsi qala-konsertin kulminasiya nöqtəsi oldu.

# Məhəbbətdən yaranan poeziya

## Məstan Günər şeirlərində xalq deyim-duyumlarından sənətkarlıqla istifadə edirdi

XX yüzilliyin ikinci yarısında uşaq ədəbiyyatına töhfə vermiş yazarlardan söz açılanda ilk yada düşənlərdən biri də şair, publisist, Dövlət mükafatı laureatı Məstan Günərdir. Aşıq şeirinin müxtəlif şəkillərinə müraciət edən şair ideya-bədii xüsusiyyətləri ilə seçilən yaradıcılıq nümunələri qələmə alıb.

Məstan Rəsul oğlu Əliyev (Günər) 25 iyul 1935-ci ildə Tovuz rayonunun Əsrik Cırdaxan kəndində dünyaya göz açıb. Uşaqlıq və gənclik dövrü qanlı-qadalı illərə təsadüf edir. Atası hərbi xidmətə çağırıldığı vaxt SSRİ-Finlandiya müharibəsi (1939-1940) başlanır və o da ön cəbhəyə göndərilir... Rəsul kişi daha sonra II Dünya müharibəsinə qatılır. Ağır döyüşlərin birində həlak olur.

Kiçik yaşlarından ata qayğısından məhrum olan Məstan orta təhsilini başa vurduqdan sonra, 1953-cü ildə Azərbaycan Pedaqoji İnstitutunun (indiki ADPU) Azərbaycan dili və ədəbiyyatı fakültəsinə qəbul olunur. İnstitutu bitirdikdən sonra əmək fəaliyyətinə jurnalist kimi başlayır. Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Komitəsində ədəbi işçi, redaktor, şöbə müdiri, baş redaktor olur. Sonra “Ədəbiyyat və incəsənət” qəzeti redaksiyasında şöbə müdiri, “Gənclik” nəşriyyatında böyük redaktor, baş redaktor müavini vəzifələrində çalışır. Jurnalistika sahəsində uğurlu fəaliyyətinə görə 1970-ci ildə Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin fəxri fərmanı ilə təltif edilir.

Ədəbiyyata əllinci illərdə gələn Məstan Günər yaradıcılığında aşıq şeiri və folklorumuzun müxtəlif janrlarından ustalıqla bəhrələnib, əsasən qoşma və gəraylılar qələmə alıb. İlk şeiri “Sosializm kəndi” rayon qəzetində dərc olunub.

Tələbəlik dövründə “İsti köynək”, “Körpü” şeirləri “Ədəbiyyat və incəsənət” qəzetində dərc edilib. Bundan ruhlanan gənc şair yaradıcılığa daha çox vaxt ayırır. “Məstan Dəmirçioğlu”, “Məstan Əsrikli”, “Məstan Məsum” və nəhayət, “Məstan Günər” ədəbi imzaları ilə şeirləri mətbuatda davamlı işıq üzü görür. “Qartal” adlı ilk kitabından sonra işıq üzü görən “İlk görüş”, “Çəmən qızı”, “Nərgizim”, “Addımlar, addımlar”, “Nəğməli qovaq”, “Obalardan əsən yellər”, “Çalğıçı quşlar”, “Bir könüldən min könülə”, “Günərli şeirlər”, “Mən bir durna qatarında”, “Gülə bəndəm” kitabları oxucular tərəfindən maraqla qarşılanır.



Yaradıcılıq fəaliyyəti yüksək qiymətləndirilən Məstan Günər 1976-cı ildə Azərbaycan Lenin Komsomolu mükafatına, 1980-ci ildə isə Azərbaycan SSR-in Dövlət mükafatına layiq görülür.

Azərbaycan Yazıçılar İttifaqı İdarə heyətinin üzvü olan şair müstəqillik illərində bir müddət Tovuz Rayon İcra Hakimiyyəti başçısının birinci müavini vəzifəsində çalışıb.

Məstan Günərin yaradıcılığında uşaqlar üçün qələmə aldığı poema və mənzum nağıllar xüsusi yer tutur. Onun “Günəbaxan nənə”, “Ağacda leylək”, “Sel”, “Lovğa Murtaz”, “Çoxbilmiş keçi”, “Dəcəl dələ, qorxaq dovşan və qorxmaz küçük”, “Ürəyin nağılı” kimi poema və nağıllarında uşaqların yaş xüsusiyyətləri, maraq dairəsi nəzərə alınaraq onların zövqünü oxşaya biləcək əhvalatların bədii təsviri əsas götürülüb. “Günəbaxan nənə” nağıl-poemasının əsasını günəbaxan haqqında əfsanə təşkil edir. Lakin şair bu əfsanənin müfəssəl məzmununu nağıl etmir, onu həm realist, həm də romantik boyalarla oxucunun gözü qarşısında canlandırır.

Məstan Günər xəlqi və milli şairdir. O, bunu kövrək “Ana” şeirində poetik bir dillə göstərib. Hiss və duyğular işığında zəhmətkeş ana qəlbinin hərarətini göz önünə gətirib. Onun qabarlı əlləri ilə gülüstana çevrilən Vətən torpağından danışır. Ananı bolluq-bərəkətli çöllərin yarı-yaraşığı hesab edib:

*Yeri taxıllı, tənəkli,*
*zər naxışlı, gül döşəkli*
*göyü göyərçin bəzəkli,*
*çöllərə yaraşan anam.*

*Sellər ilə süpürləşən,*
*çətin günlərdə kürləşən,*
*göyçək əli kömürləşən,*
*birçəyi qarlaşan anam.*

Şeirlərində xalq deyim-duyumlarından sənətkarlıqla istifadə edən şair hər gülün, çiçəyin rəng və haləsində bir məna axtarıb. Sanki bir rəssam kimi sözlə təbiət lövhələri yaradıb. Tanınmış tənqidçi Vaqif Yusifli şairin yaradıcılığı haqqında yazır: “Məstan Günərin qoşmaları XX əsr insanının, daha doğrusu, sevən aşiqin könül çırpıntılarını əks etdirir. Bu qoşmalarda Vaqif şeirinə məxsus nikbinlik sanki yenidən üzə çıxır. Gözəllikdən zövq almaq, sevdiyi gözəlin həm daxili, həm də zahiri portretini yaratmaq, məhəbbətin, sevginin ötəri hiss olmadığını sübut eləmək bu qoşmaların mahiyyətini təşkil edir”.

*Söylə, yadındamı yaz aylarıydı,*
*Tutmuşdun əlində dəstə gülləri.*
*Gördün yaranışdan*
*gül xəstəsiyəm,*
*Verdin ki, qoxlasın xəstə gülləri...*

Görkəmli şairin son kitabı 2009-cu ildə işıq üzü görən “Bir oğul göstərin Heydərə bənzər” adlanır. Kitabda müəllifin ulu öndər Heydər Əliyevlə bağlı xatirələri və böyük dövlət xadiminə həsr etdiyi şeirləri toplanıb.

Yaradıcılıq fəaliyyəti dövründə 30-dək kitabı işıq üzü görən şairin əsərləri rus, özbək və çex dillərinə tərcümə olunub. Vətənpərvər şair, uşaqların sevimli müəllifi 25 sentyabr 2010-cu ildə vəfat edib.

**Savalan Fərəcov**

# Qobustan abidələri dünya mütəxəssislərinin diqqətində

## Qoruqda bir sıra ölkələrin tədqiqatçıları ilə müştərək araşdırmalar aparılır

Ölkəmizi dünyada bəşər mədəniyyətinin ilk məskənlərindən biri kimi təqdim edən Qobustan abidələrinin öyrənilməsi Qobustan Milli Tarix-Bədii Qoruğunun əsas fəaliyyət istiqamətlərindən biridir. Elmi-tədqiqat müəssisəsi kimi qoruqda yerli mütəxəssislərin iştirakı ilə mütəmadi tədqiqatlar və arxeoloji işlər aparılır. Eyni zamanda qoruq tərəfindən Qobustan abidələrinin xarici mütəxəssislərlə birgə öyrənilməsi işi də diqqətdə saxlanılır, beynəlxalq tərkibli elmi ekspedisiyaların fəaliyyətinin təşkili üçün lazımi şərait yaradılır.





Hazırda Qobustan Milli Tarix-Bədii Qoruğu elmi-tədqiqat müəssisəsi kimi dünya mütəxəssislərinin diqqət mərkəzindədir. Son aylar bu məqsədlə qoruğa gələn əcnəbi mütəxəssislərin sayında artım müşahidə olunur.

İtaliyanın Turin Universitetinin doktorantı Simon Radçenko "Mədəni irs üçün texnologiyalar" proqramı çərçivəsində həyata keçirilən tədqiqat işi üçün 29 iyun – 12 iyul tarixlərində Qobustan qoruğunda ezamiyyətdə olmuş, yeni elmi-texniki metodlardan istifadə etməklə Qobustan abidələri və qayaüstü təsvirlər mövzusunda araşdırma aparmışdır. Daş dövrünə aid edilən arxeoloji materiallarla tanışlıq məqsədilə Qobustan qoruğuna gələn Rusiya Elmlər Akademiyasının həqiqi üzvü, akademik Xizri Amirxanoviç səfəri çərçivəsində buradakı daş materiallarla, o cümlədən qayaüstü təsvirlərlə tanış olmuşdu. Eyni zamanda alimin Qobustan abidələrinin tədqiqatçısı, tarix üzrə fəlsəfə doktoru, AMEA Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutunun elmi işçisi Füruzə Muradova ilə görüşü təşkil edilmişdir. Görüş çərçivəsində qoruğun elmi işçilərinin iştirakı ilə geniş elmi müzakirələr və qarşılıqlı fikir mübadiləsi aparılmışdır.

Qoruqda həmçinin xarici tərəfdaşlarla müştərək elmi tədqiqat layihələri həyata keçirilir. "Qərbi Asiyada ibtidai incəsənətin yaranması, inkişafı və yayılması: Qobustan" layihəsi də bu istiqamətdə reallaşdırılan diqqətəlayiq tədbirlərdəndir. Avqust ayında üçüncü mərhələsinə başlanılacaq layihənin icra müddəti üç ildir. Layihə çərçivəsində qoruq ərazisindəki Böyükdaş dağının yuxarı səki sahəsində yerləşən "Ana zağa" və "Ovçular" mağaraları, o cümlədən dağın aşağı səki sahəsində yerləşən səkkiz nömrəli qaya üzərindəki təsvirlər, həmçinin Qobustan Milli Tarix-Bədii Qoruğunda qorunub saxlanılan arxeoloji materiallar müasir elmi metodlarla öyrənilir.

Layihənin icrası Qobustanda ilkin məskunlaşma prosesinin tədqiqinə və qayaüstü təsvirlərin öyrənilməsində ən mühüm məsələlərdən olan xronologiya probleminə aydınlıq gətirilməsinə köməklik edəcək.

Layihədə Markos Qarsiya Diez (Madrid Komplutense Universiteti, İspaniya), Manuel Vaquero Rodriges (Rovira və Virgili Universiteti, İspaniya), Bianka Oçoa Freyl (Basklar Ölkəsi Universiteti, İspaniya), Dario Siqari (İtaliyanın Ferrara Universiteti, Portuqaliyanın Koimbra Universiteti) və Qobustan Milli Tarix-Bədii Qoruğunun əməkdaşı Sevinc Şirinli iştirak edir.

İnanırıq ki, dünya alimləri apardıqları elmi tədqiqat işləri ilə Qobustanın öyrənilməsinə yeni töhfələr verəcək, eyni zamanda abidənin aktiv təbliğatçısına çevriləcəklər.

Qobustan Milli Tarix-Bədii Qoruğu bundan sonra da ərazidəki abidələrin qorunması, tədqiqi, təbliği kimi şərəfli işin məsuliyyətini qürurla daşıyacaq və xalqımızın qədim tarixinin, zəngin mədəniyyətinin təqdimat məkanı kimi çoxşaxəli fəaliyyətini layiqincə davam etdirəcək.

**Vüqar İsayev**
**Qobustan Milli Tarix-Bədii Qoruğunun direktoru**

## Xatirə təqvimi 22–26 iyul

### Azərbaycan

**27 iyul 1991** – Əməkdar incəsənət xadimi, pianoçu, "Dan ulduzu" instrumental ansamblının yaradıcısı Gülarə Əziz qızı Əliyeva (17.11.1933 – 1991) vəfat edib. "Şüştər" rapsodiyası, "Humayun" süitası, "Bayatı-kürd", "Şur" fantaziyalarının müəllifidir.

**27 iyul 2012** – Əməkdar rəssam, Azərbaycan dekorativ-tətbiqi sənətinin tanınmış nümayəndəsi, professor Zahid İsa oğlu Hüseynov (20.3.1945 – 2012) vəfat edib.

**28 iyul 1935** – Görkəmli bəstəkar, Xalq artisti, professor Vasif Zülfüqar oğlu Adıgözəlov (1935 – 15.9. 2006) Bakıda doğulub. Oratoriya ("Odlar yurdu", "Çanaqqala"), opera ("Ölülər", "Natəvan"), kantata və s. əsərlərin müəllifidir. Filmlərə musiqi ("Şərikli çörək", "Həyat bizi sınayır") yazıb. Bəstəkarlar İttifaqının sədri (2000-2006) olub.

**28 iyul 1937** – Görkəmli bəstəkar, Əməkdar incəsənət xadimi Müslüm Məhəmməd oğlu Maqomayev (18.9.1885 – 1937) vəfat edib. Azərbaycan peşəkar musiqili teatrının banilərindən biridir, "Şah İsmayıl" (1916), "Nərgiz" (1935) operalarını yazıb. Azərbaycan Radiosunun musiqi şöbəsinin rəhbəri olub, "Radio marşı"nı yazıb.

**28 iyul 1945** – Ustad aşıq, Əməkdar mədəniyyət işçisi Səyyad Məşədi oğlu Pənahov (1945 – 16.2.2019) Gədəbəy rayonunun Kərimli kəndində anadan olub.

**29 iyul 1939** – Əməkdar artist, vokal ifaçısı (bariton) Əli Həsən oğlu Haqverdiyev (1939 – 14.9.1992) Bakıda doğulub. Azərbaycan Opera və Balet Teatrının solisti olub, filmlərdə ("Dədə Qorqud", "Şir evdən getdi") çəkilib.

### Dünya

**27 iyul 1824** – Fransız yazıçı-dramaturqu Aleksandr (oğul) Düma (Alexandre Dumas; 1824 - 27.11.1895) anadan olub. Əsərləri: "Kameliyalı qadın" (roman və pyes), "Diana de Lis", "Yarıqaranlıq" (pyes), "Doktor Servan" (povest) və s. "Kameliyalı qadın" əsasında C.Verdi "Traviata" operasını yazıb.

**27 iyul 1835** – İtalyan şairi, ədəbiyyat üzrə Nobel mükafatı laureatı (1906) Cozue Karduççi (Giosue Carducci; 1835-1907) anadan olub.

**27 iyul 1853** – Rus yazıçısı Vladimir Korolenko (1853-1921) anadan olub. Əsərləri: "Makarın yuxusu", "Kor musiqiçi", "Qazmada yaşayan uşaqlar" və s.

**27 iyul 1915** – İtalyan opera müğənnisi, məşhur tenor Mario del Monako (Mario del Monaco; 1915-1982) anadan olub.

**28 iyul 1750** – Alman bəstəkarı Yohann Sebastyan Bax (Johann Sebastian Bach; 31.3.1685 – 1750) vəfat edib. Operadan savayı əksər musiqi janrlarında əsərlər, o cümlədən 200-dən çox kantata, 250-dək orqan musiqisi yazıb.

**28 iyul 1812** – Polşa yazıçısı və tarixçisi Yuzef Kraşevski (Jozef İgnacy Kraszewski; 1812-1887) anadan olub. "Sehrli çıraq", "Qrafinya Kozel", "Bryul" və s. romanların müəllifidir.

**28 iyul 1866** – İngilis yazıçısı və rəssamı Beatriks Potter (Beatrix Potter; 1866-1943) anadan olub. Uşaqlar üçün əsərlərin müəllifidir: "Uxti-Tuxti", "Dovşan Piter və digər əhvalatlar".

**28 iyul 1887** – Fransız rəssamı və incəsənət nəzəriyyəçisi, dadaizm və sürrealizmin banilərindən Marsel Düşam (Marcel Duchamp; 1887-1968) anadan olub.

**29 iyul 1900** – İsveç yazıçısı, ədəbiyyat üzrə Nobel mükafatı laureatı (1974) Eyvind Gunson (Eyvind Olov Verner Johnson; 1900-1976) anadan olub.

**29 iyul 1921** – Fransız rejissoru, dünya sənədli kinosunun tanınmış nümayəndəsi Kris Marker (Christian Bouche-Villeneuve; 1921-2012) anadan olub. Filmləri: "Uçuş zolağı", "Günəşsiz", "Dərinlikdə hava qırmızıdır" və s.

**Hazırladı: Vüqar Orxan**

# "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi ictimaiyyətə müraciət edib

"İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi qoruq ərazisində aparılan monitorinqlər zamanı xoşagəlməz halların aşkar olunması ilə bağlı ictimaiyyətə müraciət edib.

Müraciətdə qeyd olunur ki, İçərişəhər Bakının və bütövlükdə ölkəmizin ən dəyərli incisi, eyni zamanda tarixi memarlıq abidələrinin mühafizə olunduğu qoruqdur. Bura müxtəlif mədəniyyətlərin, dini inancların, təzadların ahəngdarlıqla qovuşaraq mükəmməl harmoniya yaratdığı məkan olmaqla yanaşı qədim tarixə və zəngin mədəniyyətə malik Azərbaycan xalqının milli sərvətidir.

Ölkəmizin orta əsrlərdə yüksək inkişaf etmiş şəhərsalma sənətinin misilsiz yadigarı olan bu unikal məkanlardakı dünya, ölkə və yerli əhəmiyyətli memarlıq və tarixi abidələr Azərbaycan memarlığının parlaq nümunələridir və Azərbaycan Respublikası Konstitusiyasının 77-ci maddəsinə görə bu abidələri qorumaq hər bir şəxsin borcudur. Əsrlərin sınağından keçmiş mədəni irsimizin bu günədək qorunub saxlanılması dövlətin siyasəti, cəmiyyətin mədəni irsimizə münasibəti və hər bir fərdin məsuliyyəti sayəsində baş verib.



"Lakin təəssüflə qeyd etməliyik ki, "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi tərəfindən aparılan monitorinq zamanı bəzən xoşagəlməz hallar müəyyən olunur. Tarixi abidələrin bədii-estetik görünüşünü pozan vandalizm aktları ilə bağlı daima hüquq mühafizə orqanları ilə əməkdaşlıq edilir. Hüquq mühafizə orqanları ilə bu sahədə edilən əməkdaşlıq hər zaman öz töhfəsini verir.

Məlumat üçün bildiririk ki, tarixi abidələrə qarşı yol verilən hüquqazidd əməllər məsuliyyət yaradır və Azərbaycan Respublikası İnzibati Xətalar məcəlləsinə, eyni zamanda, Cinayət məcəlləsinə əsasən məsuliyyətə cəlb olunmağa əsasdır. Lakin zərər vuraraq cəza almaqdan fərqli olaraq mədəni irsimizə hörmətlə yanaşıb onu qorumaq hər bir vətəndaşın məsuliyyəti və borcudur.

Hörmətli həmvətənlər, tarixi-mədəni abidələrin qorunması hər bir kəsdən asılıdır! Mədəni irsi gələcək nəsil üçün qorumaq hər birimizin mənəvi borcu və məsuliyyətidir. Tariximizi birlikdə qoruyaq!", – deyə idarənin ictimaiyyətə müraciətində bildirilir.

# "Əzizə Cəfərzadə" biblioqrafiyası nəşr olunub

M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanası tərəfindən ədəbiyyatımızın görkəmli nümayəndəsi, Xalq yazıçısı, filologiya elmləri doktoru Əzizə Cəfərzadənin (1921-2003) anadan olmasının 100 illiyi münasibətilə tərtib edilən biblioqrafiya çapdan çıxıb.

Kitabxanadan bildirilib ki, "Əzizə Cəfərzadə" biblioqrafiyasında yazıçının həyat və yaradıcılığının əsas tarixləri, elmi və ədəbi fəaliyyətinin məhsulu olan əsərləri, tərtib etdiyi, redaktoru olduğu, ön söz yazdığı kitablar, rəhbəri və məsləhətçisi olduğu tədqiqat işləri, həmçinin həyat və yaradıcılığı haqqında 1937-2021-ci illərdə dərc edilmiş materiallar əhatə olunub.

Vəsaitdə həmçinin Azərbaycan elmi və ədəbiyyatı qarşısında böyük xidmətləri olan Əzizə Cəfərzadənin Salman Mümtaz adına Ədəbiyyat və İncəsənət Arxivində və ev arxivində saxlanılan əsərlərinin əlyazmaları, qeyd dəftərləri, gündəlikləri, çıxışlarının mətnləri, fotoşəkillər, rəylər, məktublar, teleqramlar, yazıçı haqqında müxtəlif sənədlər və digər materialların biblioqrafik təsvirləri əks olunub.

Biblioqrafiya ədəbiyyatşünas alimlər, tədqiqatçılar, kitabxanaçı-biblioqraflar və geniş oxucu kütləsi üçün nəzərdə tutulub.

Biblioqrafik göstərici ilə Milli Kitabxananın saytında müvafiq linkdə tanış olmaq olar.

# "Öz kinomuza baxmırıq..."

## Barı filmlərimizin çəkilişində istifadə olunan avadanlıqların sərgisinə gələk...



"Bəyin oğurlanması" filmini sevməyən, bu filmdə obrazların dilindən səslənən bir sıra fikirləri yeri gələndə məsəl çəkməyən az adam var. İndi sözümüz həmin filmdə deyilən "Hələ çəkmədiyi filmin intervüsünü verir" məsəlinə bənzəməsin, amma hələ açılmayan, lakin yaxın günlərdə, yəni Milli Kino Günü (2 avqust) ərəfəsində təqdim olunacaq... yarıbədii, yarısənədli, etnoqrafik... bir sərgidən söz açmaq istərdim.

### "Ay kişi, səni gah göyə qaldırır, gah arabaya mindirirlər..."

Bir neçə gün əvvəl səhər işə gələndə redaksiyamızın yerləşdiyi Dövlət Film Fondunun həyətində ala-bəzək bir rejissor kranı və əlavə bir neçə kino texnikasına rast gəldim. Düzü, ilk növbədə kran diqqətimi çəkdi. Ani olaraq "Bəyin oğurlanması" filmindəki kadr, unudulmaz aktyorlarımız Səməndər Rzayev və Həsənağa Turabovun dialoqu canlandı gözlərim qarşısında.

Fondun həyətinə çıxarılan bu avadanlıqlar, bir anlıq da olsa, bizi kinomuzun tarixi səhifələrinə səyahətə aparır. Hər film bir xatirə, bir aktyorun, rejissorun sənət taleyidir. Bu avadanlıqlar həmin sənət adamlarından yadigar qalan, onların fəaliyyətinin çətin, sevincli anlarından bizə əmanətdir. Eyni zamanda bu çəkisi ağır, üzü par-par parıldayan texnikalar sanki Azərbaycan kinosunun tarixindən, şedevr kino nümunələrimizin yaranmasında öz rollarından məmnunluqlarını ifadə edib qürurla dayanıblar...

Bütün bu düşüncələr fonunda Dövlət Film Fondunun şöbə müdiri Rəşad Qasımovla ayaqüstü söhbət edirik. Şöbə müdiri eksponatlar haqqında geniş məlumat verməklə yanaşı, onların hər birinin qısa tarixçəsini də danışır: "Milli Kino Günü ərəfəsində kino sahəsində çalışan, Azərbaycan kinosunda xidməti olan, kinonu sevən hər kəsi sərgiyə dəvət edəcəyik. Açıq sərgi Cəfər Cabbarlı adına "Azərbaycanfilm" Kinostudiyası və Dövlət Film Fondu ilə birgə təşkil edilir. Kinomuzun səssiz mərhələsindən başlamış sovetlər dönəmi bitənə qədər istifadə edilmiş texnikalar burada nümayiş olunacaq".

Həmsöhbətim deyir ki, sərgiyə hazırlıq getdiyindən və küləkli hava şəraiti imkan vermədiyi üçün hələlik bütün eksponatları həyətə çıxara bilmirik. Qarşıdakı günlərdə nəzərdə tutulan bütün avadanlıqlar sərgi üçün hazır olacaq: "Burada gördüyünüz bu ştativ quraşdırılmış səhnələr üçün istifadə edilib. İndi çox adam baxanda bu ağır texnikanın nə olduğunu bəlkə də ağlına belə gətirə bilməz. Bu böyük işığı isə hazırda çox kiçik lampalar əvəz edir. Bu hündür lampalar isə kömürlə işləyir. Onun arxasında güzgü var ki, işlədilən zaman həm də ətrafa işıq saçır.







Bu gün kino çəkilişlərində istifadə edilən kranların çəkisi gördüyünüz bu kranın çəkisindən bəlkə də 10 dəfələrlə azdır. Relslər də var, onlar da nümayiş üçün sərgiyə çıxarılacaq. Eləcə də ötən əsrin 60-cı illərində "Bir cənub şəhərində" və digər məşhur filmlərimizin lentə alındığı kameralar buradadır...".

Hələ həyətə çıxarılmayan və fondun foyesində qorunan "BASF" səs avadanlığı da diqqətimi çəkir. Çəkisi çox, həcmi böyükdür. Bu səs aparatı ilə "Qızmar günəş altında" və digər filmlərimizdə açıq havada musiqi olan səhnələr üçün istifadə edilib. 300 kq olan səs aparatı çəkiliş meydanında filmdə istifadə edilən musiqini, mahnını səsləndirmək üçündür.

Bu məqamda yenə "Bəyin oğurlanması"ndan Həsən Turabovun əzəmətli səsi sanki qulaqlarımda əks-səda verir: "Qızlar, bir az şən, həvəslə... Çəkirik!". "Fonoqramı verin!".

### "Şəhərdən kinoçıxardanlar gəlib..."

Bəs bu eksponat, yaxud kino avadanlıqları bu günə kimi harada qorunurdu sualıma da cavab tapıram. Rəşad müəllim deyir ki, irihəcmli avadanlıqlar kinostudiyada qorunur. Amma digər əksəriyyəti isə şəxsi arxivlərdən fonda daxil olub: "Kombas" adlı kameranın Bakıya gəlişinin də maraqlı tarixi var. Bu kamera ilə vaxtilə "Brilyant əl" filminin səhnələri çəkilib. Kameranı Əməkdar incəsənət xadimi Aydın Kazımzadə filmin operatorunun ailəsindən satın alıb Bakıya gətirib. Digər çoxsaylı kino texnikaları da var ki, bunları görkəmli kino xadimləri Niyazi Bədəlovun qızı, Muxtar Dadaşovun oğlu və başqa kino xadimlərimizin ailə üzvləri fonda aktla veriblər...".

Səssiz kinomuzun dövründən başlayaraq görkəmli kino xadimlərinin yaradıcılıq prosesindən kadrların da əks olunacağı sərgi, inanıram ki, maraq doğuracaq. Azərbaycan kinosunun tarixini əks etdirən fotosərgi, sovet dövrü filmlərimizin afişaları da bu sərgidə diqqət mərkəzində olacaq.

Əziz kino həvəskarları, əgər siz də kinomuzun maraqlı keçmişinə səyahət etmək istəyirsinizsə, avqustun 1-də açılacaq sərgini qaçırmayın.

**Lalə Azəri**

№55 (1928)
27 iyul 2022
www.medeniyyet.az

# Tbilisidə Qarabağın tarixi irsi haqqında kitabın təqdimatı keçirilib

Xəbər verdiyimiz kimi, Gürcüstan Milli Muzeyinin əməkdaşı, tarix elmləri doktoru, professor Eldar Nadiradzenin rəhbərliyi ilə gürcü alimləri tərəfindən "Qarabağ xanlığı. Tarixi və mədəni kimlik" adlı kitab-albom hazırlanıb. Qarabağ xanlığının tarixi irsini Gürcüstan Milli Muzeyində saxlanılan artefaktlara əsasən təqdim edən nəşr bu yaxınlarda (9 iyul) Şuşada diplomatik xidmət orqanları rəhbərlərinin müşavirəsində təqdim olunmuşdu.




İyulun 22-də Tbilisidə Gürcüstan Təsviri İncəsənət Muzeyində "Qarabağ xanlığı. Tarixi və mədəni kimlik" kitabının təqdimat mərasimi keçirilib.

Azərbaycanın Gürcüstandakı Səfirliyinin dəstəyi ilə reallaşan tədbirdə iki ölkənin elm xadimləri, ictimaiyyət nümayəndələri iştirak ediblər.

Təqdimatda çıxış edən Gürcüstan Milli Muzeyinin direktoru David Lordkipanidze, kitabın müəlliflər qrupunun rəhbəri, professor Eldar Nadiradze diqqətə çatdırıblar ki, nəşrdə XIX əsrdə çar Rusiyasının Qarabağda həyata keçirdiyi hərbi və elmi ekspedisiyalar zamanı toplanan və hazırda Gürcüstan Milli Muzeyinin fondlarında saxlanılan Qarabağ xanlığına aid olan 300-dən çox artefaktın fotoları, onlar haqqında məlumatlar yer alıb. Vurğulanıb ki, elmi araşdırma nəticəsində kataloqlaşdırılmış bu kolleksiya Azərbaycan tarixinin ayrılmaz hissəsi olan Qarabağ xanlığına, onun zəngin mədəni irsinə beynəlxalq marağın artmasına töhfə verəcək.

Kitab Azərbaycan, rus, ingilis, fransız və ərəb dillərində nəşr olunub.

Azərbaycanın tarixi ilə bağlı elmi tədqiqatlarına görə gürcü alimlərinə təşəkkür edən Azərbaycanın Xarici İşlər Nazirliyinin xüsusi tapşırıqlar üzrə səfiri Elşad İskəndərov bu əsərin Heydər Əliyev Fondunun təşəbbüsü və nazirliyin dəstəyi ilə xarici dillərə tərcümə olunaraq nəşr edildiyini deyib. O, nəşrin Azərbaycan Prezidentinin sərəncamı ilə elan edilmiş "Şuşa İli"nə töhfə olduğunu vurğulayıb, kitabın dünyanın digər elmi və mədəni mərkəzlərində də təqdim ediləcəyini bildirib.

Daha sonra təqdimatda iştirak edən Gürcüstanın elmi və mədəniyyət ictimaiyyətinin nümayəndələri kitab-albomdan seçilmiş artefaktları əks etdirən fotosərgi ilə tanış olublar. Onların arasında Qarabağ xanlığına aid edilən bayraq, Qarabağ xanları sülaləsində qorunmuş Şah İsmayılın qalxanı, həmçinin XIX əsr Şuşa şəhərinin görüntülərini əks etdirən fotolar xüsusi marağa səbəb olub.

# İsfar Sarabski Fransada caz festivalında

## Musiqiçinin "Planet" adlı yeni albomu da təqdim olunub

15-21 iyul tarixində Fransanın Sete şəhərində "JazzaSete" ənənəvi beynəlxalq caz festivalı keçirilib.

Festivalda ölkəmizi Əməkdar artist, pianoçu və bəstəkar, beynəlxalq müsabiqələr laureatı İsfar Sarabski təmsil edib. Tanınmış cazmen festivalda "Planet" adlı yeni albomunun rəsmi təqdimatını keçirib. O, eyni zamanda rəhbərlik etdiyi trio ilə birlikdə XX əsrin nüfuzlu caz ifaçısı, 14 "Qremmi" mükafatı sahibi, amerikalı pianoçu və bəstəkar Herbi Hankokla eyni səhnəni bölüşüb. Səsləndirilən Azərbaycanın caz musiqiləri böyük alqışlarla qarşılanıb.



Azərbaycanın ilk opera müğənnilərindən Xalq artisti Hüseynqulu Sarabskinin nəticəsi olan İsfar Sarabski 2009-cu ildə keçirilən pianoçuların Montrö Caz Festivalının qalibi olub. Musiqiçi dünyanın "Royal Albert Hall", "Queen Elizabeth Hall", "Miles Davis Hall", "The Konzerthaus" və digər məşhur konsert salonlarında çıxış edib. İsveçrə, Norveç, Fransa, Rusiya, Gürcüstanda keçirilən beynəlxalq festivalların iştirakçısı olub.

Əməkdar artist 2011-ci ildə moskvalı Aleksandr Maşin (zərb alətləri) və Makar Novikovla (kontrabas) birlikdə "İsfar Sarabskinin triosu"nu yaradıb.

**Lalə**

# Ayasofyanı iki ildə 6,5 milyondan çox insan ziyarət edib

Türkiyənin, o cümlədən dünyanın ən qədim tarixi abidələrindən biri olan Ayasofya məbədi çoxsaylı yerli və xarici turistləri cəlb etməyə davam edir.

Zaman-zaman müxtəlif sivilizasiyaların kəsişdiyi, din və mədəniyyətlərin bir-birini əvəzlədiyi və sonda bir araya gəldiyi İstanbulun ən qədim tikililərindən biri, şəhərin tarixi simvollarından sayılan Ayasofya 1500 illik tarixində pravoslav kilsəsi, katolik kilsəsi, məscid, muzey kimi fəaliyyət göstərmiş, iki il öncə, 2020-ci il iyulun 24-də yenidən ibadətə açılmışdı.



Ayasofya İstanbula gələn turistlərin ilk dayanacaq nöqtəsinə çevrilib. Buraya gələnlərin bir qismi namaz qılarkən, bir qismi də ölçüsü və funksionallığı ilə dünya memarlıq sənətində mühüm yer tutan bu tikili ilə yaxından tanış olur.

Dünyanın hər yerindən gələn qonaqların günü-gündən Ayasofyaya marağının artığın qeyd edən İstanbul müftisinin müavini Ahmet Aktürkoğlu bildirib ki, Ayasofya məscid kimi yenidən fəaliyyətə başlamasının ikinci ildönümündə 6,5 milyondan çox ziyarətçi qəbul edib.

Xatırladaq ki, Ayasofya 1985-ci ildə UNESCO-nun Dünya İrsi Siyahısına daxil edilib. Məbəd 1934-2020-ci illər arasında muzey olaraq fəaliyyət göstərib.

Dünya memarlıq tarixinin günümüzədək gələn ən görkəmli abidələrindən olan Ayasofya möhtəşəmliyi, ölçüsü (hündürlüyü 56 metr, günbəzin diametri 31 metr) dövrün ən böyük xristian məbədi (Romada Müqəddəs Pyotr kilsəsi inşa edilənədək) olub. Bir sıra təbii fəlakətlərlə də sınanan (984-cü ildə qübbəsi uçmuş, sonra bərpa olunmuşdu) tikili Səlib yürüşlərinin (Roma Katolik Kilsəsinin Yaxın Şərqə hərbi yürüşləri) də hədəfinə çevrilmiş, 1204-1261-ci illərdə məbəd katolik kilsəsi kimi fəaliyyət göstərib. İstanbulun (Konstantinopolun) yenidən Bizans İmperatorluğunun tərkibinə qatılması ilə təkrar pravoslav kilsəsi olub.

1453-cü ilin 29 mayında Osmanlı padşahı II Mehmet (Fateh Sultan Mehmet) tərəfindən İstanbul fəth olunur. Şəhərin fəthindən sonra Sultan Mehmet Ayasofyaya gələrək ilk cümə namazını burada qılır və bundan sonra məbədin məscid kimi fəaliyyət göstərəcəyini bildirir. 1481-ci ildə Ayasofyanın ilk minarəsi ucaldılır, sonralar müxtəlif tarixlərdə daha 3 minarə inşa edilir. Ayasofya 1616-cı ilədək, yaxınlıqda Sultan Əhməd məscidinin açılmasına qədər İstanbulun və ölkənin əsas ibadət mərkəzi idi.

Türkiyədə Cümhuriyyət qurulduqdan (1923) sonra da Ayasofya bir müddət məscid kimi fəaliyyət göstərib. 1930-cu ildə bərpa işləri ilə bağlı müvəqqəti olaraq bağlanıb. 1934-cü ildə Mustafa Kamal Atatürkün təşəbbüsü ilə Nazirlər Kabineti Ayasofyanın muzeyə çevrilməsi barədə qərar qəbul edib. 2020-ci ildən isə məbəd yenidən məscid kimi fəaliyyətinə davam edir...

# Heraklın 12 igidliyini əks etdirən mozaika tapılıb



Türkiyənin Alanya bölgəsində qədim Syedra şəhəri yerində aparılan qazıntılar zamanı mifoloji qəhrəman Heraklın (Herkules) 12 missiyasını əks etdirən təxminən 164 kvadratmetrlik mozaikası tapılıb.

Lazımi mühafizə tədbirləri görüldükdən sonra mozaikanın tapıldığını ictimaiyyətlə bölüşməyi məqsədəuyğun saydıqlarını deyən Syedra Qədim Şəhər qazıntı qrupunun rəhbəri Ertuğ Ergürer ərazidəki işlərin davam etdiyini qeyd edib.

"Bu mifoloji səhnin çəkildiyi belə bir mozaikanı daha əvvəl görməmişdik. Fraqmentlər halında mifoloji səhnələrin yer aldığı mozaiklər var, lakin buradakı mozaikada Heraklın bütün igidliklərinin təsvirini görürük. Fiqurların insan ölçülərində hazırlanması buna yeganə nümunədir. Bu mənada bənzərsiz bir mozaika ilə qarşı-qarşıyayıq. Mifoloji səhnələrin yaxşı qorunub saxlanılması isə əsərə xüsusi əhəmiyyət verir", – deyə E.Ergürer bildirib.

# Növbəti "Avroviziya"nın Britaniyada keçiriləcəyi rəsmiləşib

2023-cü ildə "Avroviziya" beynəlxalq mahnı müsabiqəsinin Böyük Britaniyada keçiriləcəyi rəsmiləşib. Bu barədə Avropa Yayım Birliyi (EBU) məlumat yayıb.




Məlumatda bildirilir ki, 2022-ci ildə "Avroviziya"nın qalibi olan Ukrayna gələn il Böyük Britaniyada keçiriləcək yarışmada birbaşa finala vəsiqə qazanacaq.

Xatırladaq ki, ölkədəki mövcud vəziyyət səbəbindən Ukraynanın "Avroviziya-2023" mahnı müsabiqəsini təşkil edə bilməyəcəyi bu ölkənin "Kalush Orchestra" qrupunun İtaliyanın Turin şəhərindəki qələbəsindən (15 may) sonra ümumən bəlli idi.

Bir qədər sonra EBU bu barədə bəyanat da yaymışdı. "Ukrayna təmsilçisinin "Avroviziya"da qələbəsindən sonra EBU Ukrayna İctimai Televiziya şirkəti müsabiqənin gələn il keçirilməsi variantlarını öyrənib. Obyektiv təhlildən sonra referent qrupu təəssüf hissi ilə belə qərara gəlib ki, mövcud vəziyyət, təhlükəsizlik zəmanəti nəzərə alınaraq, yayımçı müsabiqənin qaydalara uyğun təşkili və keçirilməsi üçün zəruri olan şərtləri yerinə yetirə bilməyəcək", - deyə müsabiqənin saytında dərc olunmuş bəyanatda bildirilirdi.

Xatırladaq ki, finalı bu ilin 14 mayında keçirilmiş "Avroviziya-2022"də ikinci yeri Böyük Britaniya təmsilçisi Sem Rayder tutub.

**V.Kamal**

Xronoqraf

# Tarixdə bu gün

## Zamanın səhifələrində qalan olaylar, faktlar...

### 218 il əvvəl...

**27 iyul 1804-cü ildə** Rusiya-İran müharibəsində (1804-1813) ilk toqquşma – Üçmüədzin döyüşü olub. İrəvan xanlığının ərazisindəki Üçmüədzin kəndi (indiki Ermənistanın Eçmiədzin rayonu) yaxınlığında baş verən döyüşdə İran qoşunları rus qoşunlarını məğlub ediblər. Sentyabrın 4-də Qəmərli kəndi (indiki Ermənistanda Artaşat qəsəbəsi) yaxınlığında ikinci döyüşdə də məğlub olan ruslar geri çəkiliblər. Lakin 1805-ci ilin əvvəlində Şəki və Qarabağ xanlıqları istiqamətində yenidən yürüşə başlayan ruslar həmin ilin mayında (14 və 21 may) bağlanan Kürəkçay müqavilələri ilə hər iki xanlığı ələ keçiriblər.

### 192 il əvvəl...

**27 iyul 1830-cu ildə** Fransada növbəti inqilab başlanıb. Avqustun 7-dək sürən "İyul inqilabı" nəticəsində Kral X Karl taxt-tacdan əl çəkib, onun yerinə I Lui Filipp taxta çıxıb. Radikal çıxışlar Avropanın bir sıra ölkələrini, o cümlədən Almaniya, Avstriya-Macarıstan və İtaliyanı bürüyüb.



### 175 il əvvəl...

**26 iyul 1847-ci ildə** Afrika dövlətləri içərisində ilk dəfə Liberiya müstəqilliyini elan edib. Qərbi Afrikada Atlantik okeanının sahilində yerləşən Liberiyanın əhalisi əsasən ABŞ-dan gələn qaradərililərdən ibarətdir. 1847-ci ildə məhz onların səyi ilə Liberiya Respublikası elan olunub.

### 103 il əvvəl...

**25 iyul 1919-cu ildə** Azərbaycan Xalq Cümhuriyyətinin nizami ordu hissələri Muğan-Lənkəran bölgəsində üsyanı yatırıblar. 1919-cu ilin mayında bölgədəki rus əhalisi (çar Rusiyası dövründə köçürülmüş molokanlar) bolşeviklərin təşviqi ilə üsyan qaldırmış və "Muğan Sovet Respublikası" adlı qondarma qurumun yarandığını elan etmişdilər.

### 102 il əvvəl...

**26 iyul 1920-ci ildə** Azərbaycan Xalq Maarif Komissarlığının qərarı ilə "geniş zəhmətkeş proletar kütləsinin musiqi savadı" alması məqsədilə Bakıda musiqi təhsili müəssisəsi – Xalq Konservatoriyası açılıb. Bir il sonra Azərbaycan Dövlət Konservatoriyası yaradıldı.

### 84 il əvvəl...

**26 iyul 1938-ci ildə** Azərbaycan SSR-in yeni Konstitusiyasına uyğun olaraq respublikanın ərazi-inzibati bölgüsündə rayonlar şəbəkəsi qanunla təsbit edilib. Bir sıra rayon və qəsəbələrin adları dəyişdirilib: Qaradonlu rayonu İmişli, Hil – Qusar, Zuvand – Lerik, Biləsuvar – Puşkin, Nərimanov – Xanlar, Vəryadüz – Yardımlı rayonları adlandırılıb. Bundan əlavə, Zubovka kəndi Əli Bayramlı (indiki Şirvan) şəhəri, Goranboy kəndi Qasım İsmayılov qəsəbəsi, alman icmasının yaşadığı Annino qəsəbəsi Şamxor (indiki Şəmkir), Helenendorf qəsəbəsi isə Xanlar (indiki Göygöl) qəsəbəsi adlandırılıb.

### 69 il əvvəl...

**27 iyul 1953-cü ildə** Koreya müharibəsi başa çatıb. Beynəlxalq hərbi kontingentin (BMT bayrağı altında) komandanı ABŞ generalı Vilyam Harrison və Şimali Koreya generalı Ham İrin imzaladığı sülh sazişinə əsasən, Şimali Koreya qoşunları 1950-ci ilə qədər olan sərhədlərə qayıdıb, 38-ci paralel üzrə Şimali və Cənubi Koreya arasında demarkasiya zonası müəyyən edilib. İki Koreya arasında indiyədək sülh imzalanmayıb.

### 30 il əvvəl...

**25 iyul 1992-ci ildə** Gürcüstanın Abxaziya bölgəsində münaqişə alovlanıb. Muxtar respublika rəhbərliyinin Gürcüstanın tərkibindən çıxmaq və müstəqilliyini elan etmək barədə qərarından sonra aparılan siyasi dialoq nəticə verməyib və gürcülərlə abxazlar arasında hərbi toqquşmalar başlanıb. Bu, Dağlıq Qarabağ, Dnestryanı və Cənubi Osetiya münaqişəsindən sonra postsovet məkanında dördüncü belə konflikt idi.

**Hazırladı: V.Orxan**

Mədəniyyət Nazirliyinin kollektivi Masallı Regional Mədəniyyət İdarəsinin rəisi Bəxtiyar Qılıncova atası

**Vaqif müəllimin**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**Allah rəhmət eləsin.**

***

Heydər Əliyev Sarayının rəhbərliyi və kollektivi keçmiş iş yoldaşları, 40 ildən artıq səhnə xidməti rəisi vəzifəsində çalışmış

**Çingiz Talıbovun**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə, yaxınlarına dərin hüznlə başsağlığı verir.

**Allah rəhmət eləsin.**

***

Masallı Regional Mədəniyyət İdarəsinin kollektivi idarənin rəisi Bəxtiyar Qılıncova atası

**Vaqif müəllimin**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**Allah rəhmət eləsin.**

**Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri**

# MƏDƏNİYYƏT

**Qəzet 1991-ci ilin yanvarından çıxır**

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79; 530-34-38 (müxbirlər)
511-76-04 (mühasibatlıq, yayım)

**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya** № AB 022279. **İndeks:** 0187. **Qiyməti:** 60 qəpik

"Mədəniyyət" qəzetinin kompüter mərkəzində səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.
**Tiraj:** 5072. **Sifariş:** 2099
**Buraxılışa məsul:** Fariz Yunisli

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.

**Bank rekvizitləri:**
Kapitalbank 1 saylı Yasamal filialı
**Kod:** 200037. **VÖEN:** 9900003611. **SWIFT:** AIIBAZ2XXXX
**Müxbir hesab:** AZ37NABZ01350100000000001944

MƏDƏNİYYƏT QƏZETİ REDAKSİYASI
**H/Hesab:** AZ98AIIB33080019443300232103. **VÖEN:** 1300338641